AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 MART 2018-ci il ÇƏRŞƏNBƏ № 56 (6089) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Monteneqro parlamentinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında yüksək səviyyədə əməkdaşlığın mövcud olduğunu qeyd edərək mütəmadi qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsi işinə töhfə verdiyini dedi. Prezident İlham Əliyev, eyni zamanda, bildirdi ki, Azərbaycan ilə Monteneqro müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq həyata keçirir, parlamentlərarası əlaqələr də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır.

İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı ticarət, investisiya sahələrində yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev özünün Monteneqroya və Monteneqro Prezidentinin və Baş nazirinin Azərbaycana səfərlərinin əlaqələrimizin möhkəmlənməsində rolunu vurğuladı. Monteneqro parlamentinin sədri İvan Brayoviçin ölkəmizə səfərinin məhsuldar olacağına əminliyini bildirən dövlətimizin başçısı bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Monteneqro parlamentinin sədri İvan Brayoviç Monteneqro Prezidentinin və Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Monteneqro ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyəsini vurğulayaraq, ölkəsinin Azərbaycan ilə əməkdaşlığın daha da möhkəmlənməsində maraqlı olduğunu dedi. Qonaq bildirdi ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn çərçivəsində həllinin tərəfdarıdır. İvan Brayoviç Azərbaycana səfəri çərçivəsində ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun təşkilatçılığı ilə Bakıda keçirilən “İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu” mövzusunda beynəlxalq konfransda iştirakından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Monteneqro Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Monteneqronun Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Rumıniyanın Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçallı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, xanım Ana Birçall Bakıda Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın nəticəsində insanların həlak olması ilə bağlı Rumıniya rəhbərliyi adından və öz adından başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VI Qlobal Bakı Forumunun önəmini qeyd edən xanım Ana Birçall forumda iştirakından məmnunluğunu bildirdi. O, 2017-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd edildiyini vurğuladı.

Dövlətimizin başçısı 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edildiyini dedi.

Xanım Ana Birçall bildirdi ki, Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bu istiqamətdə dəstəyini əsirgəməyəcək. Avropa üçün strateji əhəmiyyətli layihələrin həyata keçirilməsində Azərbaycanın mühüm rol oynadığını qeyd edən Ana Birçall bildirdi ki, Rumıniya Azərbaycanı regionda sabitliyə və təhlükəsizliyə töhfə verən ölkə kimi dəyərləndirir. O, ölkəsinin Azərbaycan ilə əməkdaşlıq əlaqələrini bütün sahələrdə bundan sonra da genişləndirmək əzmində olduğunu dedi və bu işdə hökumətlərarası komissiyanın mühüm rol oynayacağına əminliyini ifadə etdi.

Görüşdə Azərbaycan-Rumıniya əlaqələrinin yüksək səviyyəyə çatdığı vurğulandı, ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığı və əməkdaşlığımızın böyük potensialının olduğu qeyd edildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyət daşıdığı bildirildi.

Görüşdə, həmçinin qarşılıqlı sərmayə qoyuluşu və hər iki ölkədən olan şirkətlərin bu sahədə fəaliyyətinin genişləndirilməsinin vacibliyi vurğulandı.

**AZƏRTAC**

## Azərbaycan Yazıçılar Birliyinin sədri xalq yazıçısı Anara

Hörmətli Anar müəllim!

Sizi - Azərbaycanın görkəmli yazıçısını və tanınmış ictimai xadimini anadan olmağınızın 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yeni yaradıcılıq uğurları və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Sizin istedadlı nasir, publisist və dramaturq olaraq çoxəsrlik ənənələrə malik ədəbiyyatımızın daha da zənginləşməsində müstəsna xidmətləriniz vardır. Ən müxtəlif janrlarda qələmə aldığınız əsərlərdə Siz söz sənətkarlarına məxsus yüksək məharətlə müasirlərimizin mənəvi aləminin dolğun təsvirinə nail olmuş, ardıcıl ədəbi-fəlsəfi axtarışlarınızla bədii fikrimizin yeni inkişaf mərhələsinin yaradıcılarından biri kimi səmərəli fəaliyyət göstərmisiniz.

Mövzu aktuallığı, üslub fərdiliyi, dil səlisliyi və dərin həyatiliyi ilə səciyyələnərək yüksək əxlaqi keyfiyyətlər aşılayan nəsr əsərlərinizin geniş oxucu auditoriyasının zövqünün formalaşmasında təsiri təqdirəlayiqdir. Daim rəğbətlə qarşılanan səhnə əsərləriniz və dahi şəxsiyyətlərimizin ömür yolunu özünəməxsus parlaq boyalarla canlandıran kinossenariləriniz şöhrətinizi daha da artırmışdır. Hər biri uzunmüddətli araşdırmanın məhsulu olub ədəbi-mədəni fikir tariximizin bütün məqamlarını ehtiva edən məqalə və esseləriniz intellektual potensialınızın aydın təzahürüdür.

Dilimizin saflığının qorunması uğrunda mübarizə yaradıcılığınızın mühüm istiqamətlərindən birini təşkil etmişdir. Xalqımızın böyük sənətkarlarının övladı olmaqla yeni tarixi şəraitdə azərbaycançılıq məfkurəsinin inkişafında xidmətləriniz danılmazdır.

Azərbaycan Yazıçılar Birliyinin sədri vəzifəsində Siz otuz ildən bəri uğurla çalışmaqdasınız. Ümidvaram ki, ölkəmizin mədəni-ictimai həyatında bundan sonra da fəal iştirakınızla gənc ədəbi nəslin milli ideyalara bağlılıq ruhunda yetişməsi üçün bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

*Ən xoş arzularla,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2018-ci il.**

## A.R.Rzayevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində uzunmüddətli səmərəli fəaliyyətinə görə Anar Rəsul oğlu Rzayev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2018-ci il.**

## F.T.Cəfərovun Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Fərid Tahir oğlu Cəfərov Azərbaycan Respublikasının Gənclər Fondunun İcraçı direktoru təyin edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2018-ci il.**

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması ölkədə həyata keçirilən sosialyönümlü siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Son illər ölkəmizdə əhalinin, xüsusilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi, o cümlədən bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitlərinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilmiş və bu istiqamətdə işlər uğurla davam etdirilir. 1997-2017-ci illər ərzində dövlət tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə 6000-dən çox mənzil verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin alınması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.10.8-ci yarımbəndində göstərilmiş məbləğin 10,0 (on) milyon manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2018-ci il.**

## Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

**Məmmədəliyev Yusuf ülfət oğlu** – *Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri*

**Müşahidə Şurasının üzvləri**

**Babayev İntiqam Vaqif oğlu** – *Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini*

**Qurbanov Firudin İsa oğlu** – *Azərbaycan Respublikası təhsil nazirinin müavini*

**Səmədov Nazim Adil oğlu** – *Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini*

**Kərimli Mətin İmdad oğlu** – *Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini*

**Hüseynov Seymur Elşad oğlu** – *Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri*

**Orucov Seymur Vaqif oğlu** – *“Gənclərin İntellektual İnkişafına Yardım” İctimai Birliyinin idarə heyətinin sədri*

**Seyidov Mirhəsən Mirheydər oğlu** – *“İrəli” İctimai Birliyinin sədri*

**Hümbətov İlham Gürşad oğlu** – *“Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini.*

**2.** “Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının üzvlərinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 mart tarixli 2710 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 400) 1-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2018-ci il.**

# Azərbaycan-İsveçrə əlaqələrinin perspektivləri müzakirə olunub

**Martın 13-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan İsveçrə Konfederasiyası Federal Assambleyasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Filippo Lombardi ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə İsveçrənin dost və tərəfdaş ölkələr olduğunu deyən Milli Məclisin sədri dövlətlərimiz və parlamentlərimiz arasındakı sıx münasibətlərin gündən-günə inkişaf etdiyini bildirib. "Sevindirici haldır ki, əməkdaşlığımızın daha da dərinləşməsi üçün qarşılıqlı siyasi iradə var. Bu, özünü dövlət başçılarının və yüksək səviyyəli nümayəndə heyətlərin qarşılıqlı səfərlərində, aparılan danışıqlarda göstərməkdədir", - deyə O.Əsədov əlavə edib.

Sədr deyib ki, F.Lombardinin Milli Məclislə dostluq qrupunun rəhbəri kimi ölkəmizə səfəri və Bakıda keçirilən ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun beynəlxalq konfransında iştirakı böyük əhəmiyyət kəsb edir. O.Əsədov ölkəmizin müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin və onun parlamentinin yaradılmasının 100 illiyi astanasında olduğunu deyib və ilk parlamentin fəaliyyəti barədə qonağa məlumat verib.

Bildirilib ki, bu il aprelin 11-də müstəqil Azərbaycanda prezident seçkiləri keçiriləcək. Seçkiləri müşahidə etmək üçün nüfuzlu beynəlxalq qurumların nümayəndələri də ölkəmizə dəvət olunublar. Sədr bu mühüm siyasi kampaniyanın azad və demokratik şəkildə keçirilməsi üçün lazım olan hər cür şəraitin yaradıldığını bildirib. Qeyd edilib ki, Azərbaycan ilə İsveçrə arasında iqtisadi münasibətlərdə müsbət dinamika müşahidə olunur. Bu məqsədlə hökumətlərarası birgə komissiya da yaradılıb.

Milli Məclisin spikeri ikitərəfli əlaqələrin inkişafında parlamentlərin roluna diqqət çəkərək, bu sahədə dostluq qruplarının fəaliyyətini müsbət dəyərləndirib. O, hər iki ölkə parlamentində belə qrupların fəaliyyət göstərməsini təqdir edib. Bildirilib ki, qrup üzvlərinin qarşılıqlı səfərləri, beynəlxalq qurumlarda mütəmadi görüşləri parlamentlərarası münasibətlərə müsbət təsir göstərir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İsveçrə Konfederasiyası Federal Assambleyasının Azərbaycanla Parlamentlərarası dostluq qrupunun rəhbəri Filippo Lombardi ölkəmizə səfər çərçivəsində Bakıda keçirilən "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişafında parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransda iştirakından məmnunluq duyduğunu söyləyib. Bildirilib ki, Azərbaycanın qədim İpək Yolunun bərpası istiqamətində atdığı addımlar onlar tərəfindən yüksək dəyərləndirilir. Konfransda müzakirə olunan məsələlər qarşıya qoyulan məqsədlərə çatmaq üçün önəmli rol oynayır.

Qonaq ölkəsinin Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən parlamentlər səviyyəsində əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini söyləyib. Bildirib ki, İsveçrə parlamenti gələcəkdə də Azərbaycan Milli Məclisi ilə münasibətlərin daha da dərinləşməsi üçün gərəkli addımlar atmaq niyyətindədir.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, siyasi, iqtisadi, mədəni, elm, təhsil sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsi, regional münaqişələrin həlli barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Kənd Təsərrüfatı Nazirliyində pambıq əkininə hazırlıq işləri və qarşıda duran vəzifələr müzakirə olunub

**Martın 13-də Kənd Təsərrüfatı Nazirliyində "2018-ci ildə pambıq əkininə hazırlıq işlərinin təşkili və qarşıda duran vəzifələr"ə həsr olunmuş tədbir keçirilib.**



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən nazir Heydər Əsədov cari ildə pambıq əkilən rayonlar üzrə nazirliyin məsul işçilərindən ibarət təhkimçilərin müəyyən edilməsindən və onların qarşısında duran vəzifələrdən söz açıb. Təhkimçilərə rayonlar üzrə pambıq əkini üçün yerlərdə mövcud vəziyyətin araşdırılması, pay torpaqlarına üstünlük verməklə əkinəyararlı, su təminatı olan sahələrin müəyyənləşdirilməsi, toxum, gübrə, pestisid və texnikaya olan tələbatın və təminatın dəqiqləşdirilməsi, sahələrdə şumun və aratın aparılmasının yekunlaşdırılması, səpinqabağı becərmə işlərinə başlanılması və digər məsələlərlə bağlı müvafiq tapşırıq və tövsiyələr verib.

Eyni zamanda, yerlərdə pambıq əkinləri ilə bağlı yarana biləcək problemlərin (texnika, toxum, gübrə, pestisid və s.) operativ həll olunması məqsədilə "Aqrolizinq" ASC, o cümlədən nazirliyin müvafiq şöbələri və qurumaları qarşısında da konkret vəzifələr qoyulub.

Tədbirdə, həmçinin Aqrar Elm, İnformasiya, Məsləhət Mərkəzinin, elmi-tədqiqat institutlarının və nazirliyin yerli qurumlarının nümayəndələrinin birgə iştirakı ilə davamlı olaraq bölgələrdə pambıqçılığın elmi əsaslarla inkişaf etdirilməsi, gübrələrdən, pestisitlərdən düzgün istifadə olunması qaydaları barədə seminarların keçirilməsinin təşkili və digər məsələlər müzakirə olunub.

Sonda rayonlar üzrə təhkim olunmuş məsul işçilərin məlumatları dinlənilib.

**AZƏRTAC**

*The Washington Times:*

# Azərbaycan mühüm müttəfiqdir

**"The Washington Times" qəzetində ABŞ hərbi-dəniz qüvvələrinin ehtiyatda olan admiralı, ABŞ Sakit okean donanmasının sabiq komandanı və Birləşmiş Ştatların BMT-də yüksək vəzifəli hərbi nümayəndəsi Ceyms Laynsın "Azərbaycan - mühüm müttəfiq" sərlövhəli məqaləsi dərc edilib.**




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın ABŞ üçün mühüm müttəfiq olmasından və bu iki ölkə arasında münasibətləri pozmaq cəhdlərinin qarşısının alınmasının vacibliyindən bəhs olunur.

Müəllif yazır ki, şimaldan Rusiya, cənubdan İranla həmsərhəd olan Azərbaycanın qonşularla əlaqələrinin genişləndiyi dövrdə, bu ölkənin suverenliyi və müstəqilliyi ABŞ-ın maraqları üçün böyük əhəmiyyətə malikdir. Məqalədə xatırladılır ki, "Nyu-Yorkda 2001-ci il sentyabrın 11-də baş vermiş terror aktlarından sonra Azərbaycanın o zamankı prezidenti Heydər Əliyev rəsmi Vaşinqtona müraciət ünvanlamış, ona tam dəstəyini ifadə etmişdi. Bunu heç vaxt unutmamalıyıq. Bununla yanaşı, Azərbaycan NATO-nun rəhbərliyi ilə həyata keçirilən hərbi əməliyyatlarda iştirak etmiş ilk ölkələrdən biridir. Bu ölkə NATO-ya uçuşların həyata keçirilməsi üçün strateji məkanlarından istifadə icazəsi verib, logistika sahəsində yardım göstərib".

C.Layns vurğulayır ki, Bakının Türkiyə və Gürcüstanla əməkdaşlığı, Qərb ölkələrinin onu dəstəkləməsi sayəsində elə Qərbin də iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi strateji layihələr həyata keçirilib. Son dövrlərdə Cənubi Qafqaz regionu "Yeni İpək yolu" layihəsinin həyata keçirilməsində, onun maraqlarının təmin edilməsində mühüm rol oynamağa başlayıb. Qeyd edək ki, bu layihə Avropa ilə Şərqi Asiyanı birləşdirəcək, habelə Avrasiyada yeni avtomagistrallar və dəmir yolları tikiləcək. Bu yaxınlarda Azərbaycanda açılış mərasimi keçirilmiş Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işə düşməsindən sonra, Asiyanın regionla real əlaqələri yaranacaq.

Ceyms Layns yazır: "Qafqaz regionu və Azərbaycan, şübhəsiz, geostrateji əhəmiyyətə malikdir. Burada neft və qaz kimi resursların nəqli, nəqliyyat yollarının bu regionda kəsişməsi də öz rolunu oynayır. Belə bir şəraitdə Vaşinqtonla Bakı arasında əlaqələr genişlənir. Amma onların əməkdaşlığını pozmağa cəhdlər də göstərilir. Belə addımlar əsasən Azərbaycanın qonşusu olan Ermənistan və ABŞ-da fəaliyyət göstərən nüfuzlu, güclü erməni lobbisi tərəfindən atılır".

Müəllif qeyd edir ki, 1988-ci ilin fevralında baş vermiş Sumqayıt hadisələrindən Vaşinqtonla Bakı arasında əlaqələrə maneçilik törətmək, bundan Azərbaycana qarşı dezinformasiya kampaniyası aparmaq üçün istifadə olunur. Həmin hadisələr zamanı 26 erməni öldürülüb (erməni mənbələrində ölənlərin sayı şişirdilir). Həmin vaxt Sumqayıtda 14 min erməninin yaşadığı nəzərə alınsa, demək, bu, soyqırımı və ya qətliam olmayıb. O da məlumdur ki, Sumqayıtda ermənilərə hücum edən qrupa Eduard Qriqoryan adlı erməni başçılıq edib.

Məqalədə xatırladılır ki, 1991-ci ilin dekabrında, yəni SSRİ dağılan zaman Qafqaz regionunda xaos hökm sürürdü. Bundan istifadə edən erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayıraraq Ermənistana birləşdirməyə cəhd göstərirdilər. Nəticədə həmin dövrdə azərbaycanlılar etnik təmizlənməyə məruz qaldı. 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində törədilən qətliam miqyasına, həyata keçirilmə məqsədinə görə əsl soyqırımı mahiyyəti daşıyırdı. Fevralın 26-na keçən gecə erməni hərbi birləşmələri Xocalını artilleriya atəşinə tutdular. Qaçmağa çalışan mülki əhali mühasirəyə alındı və qətlə yetirildi. Bu zaman qadın, uşaq və qocalar daxil olmaqla, 600-dən çox insan öldürüldü, çox sayda insan yaralandı.

"Etnik səciyyə daşımayan Sumqayıt hadisələrindən fərqli olaraq, Xocalı qətliamı Ermənistan rəhbərliyi tərəfindən planlı şəkildə həyata keçirilmişdi. Bu faciə zamanı insanlar məhz etnik mənsubiyyətinə görə öldürülmüşdü. Bu, soyqırımı aktı idi!", - deyə məqalədə vurğulanır.

Ceyms Layns məqalənin sonunda yazır ki, ABŞ-da, Avropada fəaliyyət göstərən erməni lobbisi Xocalı qətliamı, Sumqayıt hadisələri haqqında həqiqətlərin dünyaya yayılmasına mane olub. Bu gün isə erməni lobbisi ABŞ-Azərbaycan əlaqələrinə maneə yaradır. Odur ki, gələcəkdə Bakı ilə Vaşinqton arasında əlaqələrin pisləşməməsi üçün bu dezinformasiya kampaniyasının qarşısı alınmalıdır.

**AZƏRTAC**

*ABŞ-ın Azərbaycandakı səfirliyi:*

# Birləşmiş Ştatların Dağlıq Qarabağla bağlı mövqeyi dəyişməyib

**Birləşmiş Ştatların Dağlıq Qarabağla bağlı mövqeyi dəyişməyib. Nə ABŞ, nə də digər ölkələr, o cümlədən Ermənistan Dağlıq Qarabağ rejimini de-fakto tanımır.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər ABŞ-ın Azərbaycandakı səfirliyinin mətbuat xidmətindən verilən məlumatda qeyd olunub.

Məlumatda deyilir ki, Amerika Birləşmiş Ştatları ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətini dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının prinsipləri əsasında danışıqlar yolu ilə həll olunması istiqamətində fəaliyyətini davam etdirəcək.

**AZƏRTAC**

# Bakıda ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun beynəlxalq konfransı keçirilib

**Martın 13-də Bakıda "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycan Respublikası Milli Məclisi və ATƏT Parlament Assambleyasının (PA) İpək Yoluna Dəstək Qrupu tərəfindən təşkil edilib.

Tədbirdən əvvəl iştirakçılar Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Konfransın moderatoru Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev bildirib ki, konfrans çərçivəsində "Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi", "Nəqliyyat və logistika prosedurlarının sadələşdirilməsi" və "Etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği" mövzularında panel iclaslar keçiriləcək.

Diqqətə çatdırılıb ki, ATƏT PA-da İpək Yoluna Dəstək Qrupu Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılıb. Əgər qrup yaranan vaxt 17 ölkə onun üzvü idisə, bu gün üzvlərin sayı 22-yə çatıb. Bu da Avropa ölkələrinin Azərbaycanın təşəbbüsünə marağının göstəricisidir.

Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova konfransda çıxış edərək deyib ki, dinamik inkişaf edən Azərbaycan bu gün regional və qlobal layihələrin reallaşmasında fəal iştirak edir. Ölkəmizin iştirakçısı olduğu və İpək Yolunun mühüm hissəsini təşkil edən Şərq-Qərb, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üçün əməli addımlar atılır.

Bahar Muradova vurğulayıb ki, Azərbaycan İpək Yolu üzərində yerləşən əsas ölkələrdən biridir. Azərbaycan İpək Yolundan faydalanan ölkələrə imkanlar verən bir ölkə rolunu oynayır. Bu yolla bağlı həm Şərqdə, həm də Qərbdə fəaliyyət aparılır. Parlamentarilərin burada iştirak etmələri, bu layihə ətrafında fəaliyyət göstərmələri çox əhəmiyyətlidir. Azərbaycan İpək Yolunun bərpasına investisiya qoyan bir ölkədir.

Milli Məclis sədrinin müavini Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəhəng layihələr barədə məlumat verib. O, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin önəmi haqqında danışaraq bunun Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olduğunu deyib. Şimal-Cənub Nəqliyyat Dəhlizinin də Azərbaycanın iqtisadi inkişafına zəmanət vəd etdiyini deyən Bahar Muradova ölkəmizin coğrafi mövqeyinin dünya ölkələrinə böyük imkanlar yaratdığını vurğulayıb.

Bahar Muradova bildirib ki, Azərbaycanın İpək Yoluna Dəstək Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etməsi təsadüfi deyil. Azərbaycan bu təşəbbüsü irəli sürməyə mənəvi və siyasi haqqı olan ölkədir.

ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli Bakı konfransının mühüm əhəmiyyət kəsb etdiyini deyib. O, bu layihənin həyata keçirilməsi ideyası haqqında danışıb. Bildirib ki, bu ideya irəli sürüləndə bir çox ölkələr layihəni dəstəklədi və ona qoşulmaq qərarına gəldi. Bu layihə ölkələr arasında münasibətlərin daha da möhkəmlənməsində mühüm rol oynayacaq.

Georgi Tsereteli iqtisadi, humanitar sahələrin ATƏT üçün önəmli sahələr olduğunu deyib. Bildirib ki, ATƏT yaranan problemlərə qarşı çox fəal şəkildə mübarizə aparır. Buraya terrorizmə qarşı mübarizə, münaqişələr daxildir. Lakin iqtisadi əməkdaşlıq da çox vacibdir.

"İpək Yolu bizim üçün çox önəmlidir. İpək Yolu elə marşrutdur ki, bu yol boyunca əhali yaşayır. Bu marşrut üzrə vacib şəhərlər yerləşir. Bunlar xalqlarımızın inkişafı baxımından əhəmiyyət kəsb edən şəhərlərdir. Nəqliyyat infrastrukturunu müasirləşdirmək də əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Qars dəmir yolunu buna gözəl misal kimi göstərmək olar. ümumiyyətlə, hamımız üçün qarşımızda duran əsas prioritet iqtisadi sahədə müvəffəqiyyət əldə etməkdir", - deyə ATƏT PA-nın sədri qeyd edib.

Monteneqro parlamentinin sədri İvan Brayoviç konfransın yüksək səviyyədə təşkil edildiyini bildirib. O, Azərbaycanda yüksək səviyyəli qonaqpərvərliyin şahidi olduğunu söyləyib. İpək Yolunun önəmindən danışan parlamentin sədri bunun Monteneqro üçün də mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. "Tarix bizə öyrədir ki, körpüləri tikməzdən əvvəl insan öz daxilində də bir körpü yaratmalıdır. Bu da dostluq körpüsü olmalıdır. Əgər bir şəxs özündən başqa heç kimi tanımırsa, o, kasıb qalacaq. Bu, eynilə ölkələrə də aiddir. Monteneqro da bu layihədə önəmli yer tutur. İpək Yolunda iştirak etmək ölkəmiz üçün çox vacibdir. Bu, ən vacib layihələrdən biridir", - deyə İvan Brayoviç bildirib.

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov deyib ki, səmərəli çoxmodullu nəqliyyat dəhlizlərinin qurulması yolu ilə ticarətin asanlaşdırılması və regiondaxili və transregional infrastruktur uzlaşması ATƏT məkanında davamlı iqtisadi artıma töhfə verə bilər və verəcək. Xüsusilə də ATƏT-in yaxşı idarəetmə və uzlaşma ilə bağlı Hamburq Nazirlər Şurası, o cümlədən nəqliyyatla bağlı bütün müvafiq ATƏT sənədləri və qərarları bu xüsusda əməkdaşlıq üçün faydalı çərçivəni təmin edir.

Nazir qeyd edib ki, Azərbaycanın Xarici İşlər Nazirliyi İpək Yoluna Dəstək Qrupunun yaradılmasını alqışlayır. Bu gün burada 22 iştirakçı dövlət var. Əlbəttə ki, bu rəqəm arta bilər. Bu qrup ticarət dəhlizlərinin möhkəmləndirilməsi məqsədilə əsas element kimi regional nəqliyyat infrastrukturu məsələlərində dialoq üçün platforma rolunu oynayır.

Elmar Məmmədyarov qeyd edib ki, son illər Azərbaycan region boyunca nəqliyyat infrastrukturlarına sərmayə qoymaqla və tikintisini həyata keçirməklə əhəmiyyətli addımlar atıb. Bununla yanaşı, regionlararası ticarət dəhlizlərini uğurla dəstəkləmək və inkişaf etdirmək məqsədilə ölkədə möhkəm davamlı siyasi və makroiqtisadi sabitliyə nail olmaq və inkişaf etdirmək zəruri idi. Bu xüsusda, Azərbaycan bir neçə il əvvəl neft və qaz sənayesində xarici şirkətlər üçün əlverişli, liberal investisiya mühitini təmin etməklə artıq özünü sübut edib.

Nazir bildirib ki, Azərbaycan dövlətlərarası dinc münasibətlər və iqtisadi əməkdaşlıq öhdəliyi ruhu ilə ticarət dəhlizlərini və nəqliyyat infrastruktur layihələrini təşviq edir. Bu məqsədlə biz, həmçinin inklüziv regional əməkdaşlığın siyasi və ticari cəhətdən zəruri arxitekturasını gücləndirmək üçün regional və subregional dövlətlərarası çərçivələr şəbəkəsini də yaratmışıq. Maneələrin aradan qaldırılması, regional və regionlararası layihələrdə müxtəliflik yaradılması Azərbaycanın ikitərəfli münasibətlərində və tərəf olduğu bütün beynəlxalq və regional iqtisadi təşkilatlarda önəm verdiyi istiqamətlərdən biridir.

Monqolustanın xarici işlər naziri Damdin Tsogtbatar bildirib ki, ölkəsi siyasi və iqtisadi cəhətdən İpək Yolu marşrutunu dəstəkləyir. Monqolustanın dənizə çıxışının olmaması və bu marşrutdan istifadə etməsi onun üçün yaxşı imkanlar yaradır. İpək Yolu, eyni zamanda, çox vacib bir mexanizmdir. Bu, bütövlükdə Avrasiya məkanında istifadə olunması üçün vacib bir marşrutdur.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi Asəf Hacıyev çıxışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Yol inkişaf və çiçəklənmə deməkdir" fikrini xatırladıb. O bildirib ki, bu baxımdan İpək Yolu mühüm önəm kəsb edir. Bu yol təkcə məhsulların daşınması baxımından vacib deyil, onun mənası daha genişdir.

Baş katib vurğulayıb ki, əgər 30-40 il bundan əvvəl ölkələrin inkişafı neftlə, qazla ölçülürdüsə, bu gün nəqliyyat, texnologiya ilə ölçülür.

TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin baş katibi Mirçea Çiopraqa TRACECA barədə məlumat verib. Bildirib ki, Avrasiya İpək Yolu ideyasının yenidən gündəmə gəlməsi Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi-TRACECA-da öz təzahürünü tapıb. TRACECA-nın məqsədi təkcə xüsusi iqtisadi maraqlarla məhdudlaşmır, o, həm də zəngin tarixin və mədəniyyətin gələcək üçün qorunub saxlanmasını təmin edir. TRACECA ərazisindən keçdiyi ölkələrin iqtisadi inkişafının ayrılmaz hissəsidir və eyni zamanda, qarşılıqlı inteqrasiya və səmərəli əməkdaşlıq üçün güclü bir alətdir.

Çinin Azərbaycandakı səfiri Vey Cinhua Bakı konfransının əhəmiyyətinə toxunub. O deyib ki, belə tədbirlərin keçirilməsi ölkələrin qarşılıqlı əlaqələrinin inkişafı üçün imkanlar yaradır. İpək Yolu marşrut xətti boyunca ölkələr arasında əlaqələrin genişlənməsinə mühüm töhfələr verə biləcək əhəmiyyətli bir layihədir.

Konfrans işini panel iclaslarla davam etdirib.

"Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi" mövzusunda birinci panel iclas Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın moderatorluğu ilə keçib. Bahar Muradova qeyd edib ki, ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın, xüsusilə ticari əlaqələrin möhkəmləndirilməsi çox vacibdir. Bu istiqamətdə müxtəlif tədbirlər təşkil edilir, irimiqyaslı layihələr həyata keçirilir.

Panel iclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycanın İpək Yolu layihəsinin həyata keçirilməsində həmişə fəal iştirak etdiyini söyləyib. Layihənin ölkəmizə məxsus hissəsinə investisiyalar yatırılıb. Görülən işlər ölkəmizin bu işə necə önəm verməsinin bariz nümunəsidir. Bakıda keçirilən bu beynəlxalq konfrans da bunun bir göstəricisidir. Belə nəhəng layihələr ölkələrə iqtisadi fayda verir. Azərbaycan bu kimi irimiqyaslı layihələrdə hər zaman uğurla iştirak edir.

Rumıniyanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü, Assambleyanın vitse-prezidenti Viktor Paul Dobre iqtisadi əlaqələrin inkişafının ölkələr üçün prioritet məsələ olduğunu söyləyib. O, belə yanaşmanın ATƏT regionunda iqtisadi konsepsiya ilə bağlı olduğunu və bu konfransın məqsədlərinə uyğun gəldiyini vurğulayıb. Viktor Paul Dobre ölkəsinin müxtəlif layihələrlə bağlı əməkdaşlıqlara önəm verdiyini qeyd edib.

Belarusun ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Boleslav Pirştuk qeyd edib ki, sülh və təhlükəsizliyin qorunub saxlanması, sabitliyin davam etdirilməsi ümumi maraqlarımıza xidmət edir. İpək Yolu qarşılıqlı faydalı əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi baxımından çox önəmlidir. Avrasiya məkanında əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur. Belarus Avrasiyada önəmli yer tutan bir ölkədir.

Avstriyanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü Roman Hayder İpək Yolu ölkələri arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində işlərin davam etdirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, bu məsələ həmin ölkələrin iqtisadi sabitliyinə müsbət təsir göstərən əsas amillərdən biridir. Eyni zamanda, iqtisadi əlaqələrin möhkəmləndirilməsi xalqlar arasında demokratik dəyərlərə əsaslanan əlaqələr də yaradır.

"Nəqliyyat və logistika prosedurlarının sadələşdirilməsi" mövzusunda ikinci panel Serbiyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Stefana Miladinoviçin moderatorluğu ilə keçib. Panel iclasda çıxış edən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, "Azərbaycan Dəmir yolları" QSC-nin sədr müavini Hicran Valehov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Tahir Məmmədov və digərləri çıxış edərək bildiriblər ki, ölkələrin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası, infrastrukturun inkişafı, bu sahənin davamlı maliyyələşdirilməsi, xidmətin keyfiyyətinin artırılması, nəqliyyatdan istifadənin sadələşdirilməsi məsələlərinə önəm verilməlidir. Qeyd olunub ki, bununla bağlı bir sıra beynəlxalq layihələrə qoşulmaq üçün təşəbbüs göstərməlidir.

"Etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği" mövzusunda üçüncü panel iclas Avstriyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbərinin müavini Reinhold Lopatkanın moderatorluğu ilə keçib.

Panel iclasda çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkəmizdə həyata keçirilən islahatlar barədə danışıb. O, Azərbaycanda belə beynəlxalq tədbirlərin keçirilməsinin heç də təsadüfi olmadığını deyib. Nazir Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələrin ölkəmizin dünyada nüfuzunu daha da artırdığını vurğulayıb. Əbülfəs Qarayev, həmçinin vurğulayıb ki, bu cür beynəlxalq konfranslar ölkələr arasında etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. O, Azərbaycanın mədəni əlaqələr, dini tolerantlıq baxımından digər ölkələr üçün nümunə olduğunu bildirib.

Moldovanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Sergey Sirbu, Bolqarıstanın təşkilatdakı nümayəndə heyətinin rəhbəri Desislava Atanasova və digərləri çıxış edərək ölkələr arasında qarşılıqlı dialoqa əsaslanan mədəni mübadilənin həyata keçirilməsinin önəmindən danışıblar.

Beynəlxalq konfransın yekununda Bakı Bəyannaməsi qəbul olunub.

**AZƏRTAC**

# Silahlı Qüvvələrin genişmiqyaslı təlimində ərazinin kəşfi aparılıb

**Silahlı Qüvvələrin genişmiqyaslı təlimləri çərçivəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərin komanda müşahidə məntəqələrindən birində olub.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birlik və birləşmə komandirləri, onların qoşun növləri və qisimlərinin rəisləri, eləcə də digər vəzifəli şəxslərin məruzələri dinlənilib, ərazidə qüvvə və vasitələrin tətbiqi üzrə tapşırıqlar dəqiqləşdirilib.

Səhra şəraitində ərazidə yaradılmış məntəqələr və müxtəlif poliqonlardakı təlim nöqtələrinə baş çəkən müdafiə naziri döyüş texnikaları, silah-sursat və şəxsi heyətin təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

AZƏRTAC

# Təlimlərdə ərazinin maketi üzərində fəaliyyətlər icra olunub





**Genişmiqyaslı təlimlərin planına uyğun olaraq, təlim iştirakçıları ərazinin maketi üzərində qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkilini həyata keçiriblər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən müşavirədə çətin dağlıq relyef şəraitində qoşunların döyüş hazırlığı təcrübəsi nəzərə alınmaqla təlimlərin mərhələlər və vaxt üzrə epizodları işlənilib.

AZƏRTAC

*İvan Brayoviç:*

# Monteneqro Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə dəstəkləyir

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizə səfərindən məmnunluğunu ifadə edən İ.Brayoviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə çox maraqlı və faydalı görüş keçirdiyini bildirib.

İ.Brayoviç Azərbaycanın son illər ərzində artan nüfuzu, bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi faktını diqqətə çatdıraraq, ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda keçirilməsinin önəmini vurğulayıb, sessiya çərçivəsində keçirilmiş məhsuldar müzakirələrin dialoqun və əməkdaşlığın inkişafına əsaslı töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə Azərbaycan ilə Monteneqro arasında dostluq əlaqələrinin konstruktiv dialoq və anlaşma mühitində yüksələn xətlə inkişaf etdiyi məmnunluqla qeyd olunub. Bu xüsusda, iki ölkənin beynəlxalq gündəlikdə duran məsələlərə münasibətdə baxışlarının üst-üstə düşdüyü, beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyi bildirilib, Monteneqronun Avratlantik təsisatlarda Azərbaycanın etibarlı tərəfdaşı olduğu diqqətə çatdırılıb. Monteneqronun Azərbaycanın "Expo 2025"ə namizədliyini dəstəklədiyi qeyd edilib.

Azərbaycan ilə Monteneqro arasında dostluğun inkişafında parlament diplomatiyasının xüsusi rola malik olduğu vurğulanıb. Hər iki ölkənin parlament nümayəndə heyətlərinin Avropa Şurası Parlament Assambleyası, ATƏT Parlament Assambleyası, NATO Parlament Assambleyası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası çərçivəsində uğurla əməkdaşlıq etdiyi qeyd olunub.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesi haqqında fikir mübadiləsi aparılıb.

Monteneqro parlamentinin spikeri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə dəstəklədiyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında, Minsk qrupu çərçivəsində həllinin tərəfdarı olduğunu deyib.

Nazir E.Məmmədyarov Monteneqronun münaqişənin həllinə dair bu ədalətli mövqeyinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, bütün beynəlxalq ictimaiyyətin, o cümlədən Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə dəstəklədiyini vurğulayıb.

Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, investisiya, turizm və təhsil sahələrində əməkdaşlıq məsələlərinə də toxunulub. Nazir Elmar Məmmədyarov qonağa Cənub Qaz Dəhlizinin inkişafı, TANAP və TAP layihələri haqqında məlumat verib və bu əsnada Monteneqro ilə əməkdaşlıq məsələlərindən danışıb.

Həmçinin görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

AZƏRTAC

# Azərbaycan ilə İsveçrə arasında fəal siyasi dialoq mövcuddur

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İsveçrə parlamentinin Xarici Əlaqələr Komitəsinin və İsveçrə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Filippo Lombardi ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı tərəflər İsveçrə və Azərbaycan arasında müxtəlif sahələrdə, o cümlədən parlament səviyyəsində əməkdaşlığın hazırkı durumu və perspektivləri barədə fikir mübadiləsi aparıblar. Ölkələrimiz arasında əlaqələrin inkişafında parlament diplomatiyasının mühüm rol oynadığı diqqətə çatdırılıb.

Nazir Elmar Məmmədyarov ölkələrimiz arasında fəal siyasi dialoqun mövcudluğunu təqdir edərək, həmsöhbətini siyasi təmaslar və həyata keçirilən iqtisadi layihələr barədə məlumatlandırıb. Bu xüsusda, nazir 70-dən artıq İsveçrə şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini qeyd edərək, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın daha da artırılması üçün geniş potensialın mövcudluğunu ifadə edib.

F.Lombardi Azərbaycan Dövlət Neft Şirkətinin İsveçrədəki fəaliyyətini yüksək qiymətləndirib və hər iki ölkənin iş adamları arasında birbaşa əlaqələrin təşviq edilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Moldovada Heydər Əliyev Fondunun dəstəyi ilə inşa ediləcək Mədəniyyət-Təhsil Mərkəzinin binasının təməli qoyulub

**Martın 13-də Moldovanın Çadır-Lunqa şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa ediləcək Mədəniyyət-Təhsil Mərkəzinin binasının təməlqoyma mərasimi keçirilib.**

Azərbaycanın Moldovadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, 1600 kvadratmetrdən çox sahəsi olan Mədəniyyət-Təhsil Mərkəzinin binası lazımi avadanlıqla, eləcə də kompüter otaqları ilə təchiz olunacaq. Mədəniyyət-Təhsil Mərkəzi Azərbaycan rəhbərliyinin göstərişi əsasında Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə inşa olunacaq.

Təməlqoyma mərasimində Moldova Respublikasının Prezidenti İqor Dodon, Qaqauziya Muxtariyyətinin başqanı xanım İrina Fedorovna Vlah, Heydər Əliyev Fondunun nümayəndəsi Ələkbər Quliyev iştirak ediblər.

Mərasimdə çıxış edənlər bildiriblər ki, Mədəniyyət-Təhsil Mərkəzində Çadır-Lunqa şəhərinin və ətraf rayonların uşaqları və gəncləri öz potensiallarını tam şəkildə reallaşdıracaq və Mərkəz Moldova xalqının gənc istedadlarının inkişafına xidmət edəcək.

Bildirilib ki, Mərkəzin tikintisi Azərbaycan və Moldova arasında dostluq və mehriban qonşuluq münasibətlərinin daha bir rəmzi olacaq və gələcəkdə bu münasibətlərin daha da inkişafına öz töhfəsini verəcək.

AZƏRTAC

# İran Prezidenti Azərbaycanın iqtisadiyyat nazirini qəbul edib

**Martın 13-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani bu ölkədə səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, İran Prezidenti ölkələrimiz arasında tarixi dostluq münasibətlərini vurğulayaraq, siyasi, iqtisadi və mədəni əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini, İranın Azərbaycanla əlaqələrin genişləndirilməsinə önəm verdiyini qeyd edib. Azərbaycan və İran arasında əlaqələrin daha da inkişafı üçün geniş potensialın olduğunu bildirən Həsən Ruhani nəqliyyat, enerji, investisiya qoyuluşu sahəsində əməkdaşlığın daha da genişlənməsinə, Azərbaycana nəzərdə tutulan səfərinə dair fikirlərini bölüşüb. İran Prezidenti salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

İqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkürünü bildirib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran Prezidentinə çatdırıb. Şahin Mustafayev Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi və dostluq münasibətlərinin əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığını, son 4 ildə dövlət başçılarının yüksək səviyyəli 10 görüşünün keçirildiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan İranla əlaqələrə xüsusi əhəmiyyət verir və İranın uğurları Azərbaycanı sevindirir. Azərbaycan-İran əməkdaşlığı bütün sahələrdə, o cümlədən iqtisadi sahədə inkişaf edir. Hazırda ölkələrimiz sənaye, ticarət, energetika, nəqliyyat-tranzit və digər sahələrdə uğurla əməkdaşlıq edir, ticarət dövriyyəsi artır, işgüzar dairələr səmərəli əməkdaşlıq edir, avtomobil istehsalı və əczaçılıq sahələrində birgə layihələr reallaşdırılır, Azərbaycan və İranın tranzit potensialının reallaşdırılmasında mühüm əhəmiyyət kəsb edən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə işlər davam etdirilir.

Nazir Şahin Mustafayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu ədalətli mövqeyə və ərazi bütövlüyümüzü dəstəklədiyinə görə İran tərəfinə bir daha təşəkkür edib.

AZƏRTAC

# İran Prezidentinin Azərbaycana səfəri zamanı Neftçala Sənaye Parkında avtomobil istehsalı zavodu açılacaq

**Martın 13-də Tehranda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan-İran əlaqələri ortaq dinə, tarixə və adət-ənənələrə əsaslanır və xalqlarımızı sıx əlaqələr birləşdirir. Dövlət başçılarının siyasi iradəsi nəticəsində son 4 ildə Azərbaycan-İran əlaqələri xüsusilə inkişaf edib və yeni mərhələyə qədəm qoyub. Bu müddətdə 10 yüksək səviyyəli görüş, 100-dən çox qarşılıqlı səfər həyata keçirilib. İndiyədək 150-yə yaxın sənəd imzalanıb.

Şahin Mustafayev komissiyanın ötən iclasından keçən dövrdə görülmüş işlər barədə məlumat verib. Qeyd olunub ki, 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 16 faiz artıb, Azərbaycanda qeydiyyatdan keçmiş İran şirkətlərinin sayı 700-ü ötüb, İranın Azərbaycana yatırdığı investisiyaların həcmi 3,1 milyard ABŞ dollarına çatıb. 2016-cı ildə Neftçala Sənaye Zonasında təməli qoyulmuş birgə avtomobil istehsalı zavodunda işlər tamamlanmaq üzrədir. İran Prezidenti Həsən Ruhaninin martın sonunda Azərbaycana gözlənilən səfəri çərçivəsində avtomobil istehsalı zavodunun açılışı olacaq. Pirallahı Sənaye Parkında İranla birgə reallaşdırılan əczaçılıq zavodunun yaradılması istiqamətində isə işlər davam edir.

Energetika sahəsində "Xudafərin/Qız Qalası" və "Ordubad/Marazad" hidroqovşaqları, 330 kv-luq Muğan (İmişli-Parsabad) elektrik xətti kimi layihələr həyata keçirilib, İrana elektrik satışına dair Çərçivə Sazişi imzalanıb. Neft-qaz sahəsində də uğurla əməkdaşlıq edirik.

Azərbaycan-İran əməkdaşlığının mühüm istiqamətlərindən olan "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə intensiv şəkildə aparılır. Azərbaycanda 8,3 kilometr, İranda 1,4 kilometr dəmir yolu, Astara çayı üzərində dəmir yolu körpüsü istismara hazırdır və artıq sınaq qatarlarının hərəkəti həyata keçirilib. Astarada (İran) terminalın təməlinin qoyulması və məhsul anbarlarının tikintisi nəzərdə tutulur. "Şimal-Cənub" nəqliyyat dəhlizinin tərkib hissəsi olan Rəşt-Astara dəmir yolu xəttinin tikintisinin maliyyələşdirilməsinə dair müzakirələr davam edir. 2017-ci ildə Rusiyadan İrana və əks istiqamətdə Azərbaycandan 19 mindən çox TİR keçib, İranda milli daşıyıcılarımızın çəkisi isə 23,2 faiz artıb.

Nazir Şahin Mustafayev qeyd edib ki, ötən müddət ərzində İrandan Azərbaycana gələn turistlərin sayı xeyli artıb. 2016-cı ildə bu göstərici 247 min olduğu halda, ötən il 363 min olub. Azərbaycana gələn turistlərin sayına görə iranlılar 3-cü, "ASAN viza" vasitəsilə viza alan əcnəbilər arasında isə İran vətəndaşları 1-ci yerdədir.

Əməkdaşlığın genişləndirilməsi perspektivlərinə gəlincə, nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, kənd təsərrüfatı, sənaye, ticarət, nəqliyyat, turizm, səhiyyə, bankçılıq və s. sahələrdə əməkdaşlıq üçün böyük imkanlar var. Azərbaycanda İranla birgə avtobuslar, kənd təsərrüfatı texnikası istehsal edilə bilər.

İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Məsud Kərbasian ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, son illərdə Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə çatdığını qeyd edib. Məsud Kərbasian hər iki ölkənin dövlət başçısının İran-Azərbaycan əlaqələrinin inkişafına və Dövlət Komissiyasının işinə dəstək göstərdiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan-İran Dövlət Komissiyasının fəaliyyəti digər ölkələrlə olan komissiyalarla müqayisədə bütün sahələri əhatə edir. İranlı nazir qeyd edib ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artması müsbət haldır. Bundan başqa, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində də əlaqələrin inkişafı üçün potensial böyükdür.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan-İran iqtisadi əməkdaşlığına, ölkələrimiz arasında birgə həyata keçirilən layihələrə, ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb.

Komissiyanın iclasında Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov da iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının iclası martın 14-də də davam edəcək və komissiyanın 12-ci iclasının yekunlarına dair Protokol imzalanacaq.

AZƏRTAC

# Azərbaycan nümayəndə heyəti İranın neft naziri ilə görüşüb

**İran İslam Respublikasında səfərdə olan iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin başçılıq etdiyi nümayəndə heyəti İranın neft naziri Bijan Namdar Zəngənə ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və İranın neft-qaz sahəsində əlaqələri və bu sahədə mövcud potensialdan istifadə olunmaqla əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib. Nazir Şahin Mustafayev ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə reallaşan dünya əhəmiyyətli iri neft-qaz layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi barədə geniş məlumat verib və qeyd edib ki, İran tərəfindən Azərbaycana ümumilikdə 3,1 milyard ABŞ dolları investisiya yatırılıb ki, bunun da 2,95 milyard dolları neft sektoruna qoyulub. Neft-qaz sahəsində Azərbaycan və İran şirkətlərinin fəaliyyətini qeyd edən iqtisadiyyat naziri təbii qaz mübadiləsi və yeraltı qaz anbarlarından istifadə imkanları, Xəzər dənizində yataqların birgə işlənməsi, neft-qaz maşınqayırması avadanlıqlarının Azərbaycanda birgə istehsalı, neft-kimya sahəsində əməkdaşlıq və s. məsələlərə dair fikirlərini bildirib.

AZƏRTAC

# Azərbaycan nümayəndə heyəti İranda müzakirələri davam etdirir

**İranda səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin İranın səhiyyə, müalicə və tibb təhsili naziri Həsən Qazizadə Haşimi ilə görüşündə ölkələrimiz arasında əməkdaşlığın digər sahələrlə yanaşı, səhiyyə sahəsində də uğurla inkişaf etdiyi vurğulanıb, bu sahədə əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə edilib.**

Şahin Mustafayev qeyd edib ki, İranın tibb sahəsində ixtisaslaşmış bir sıra ali təhsil müəssisələrinin rəhbərləri Azərbaycanda səfərdə olub, Azərbaycanın Tibb Universiteti ilə Təbriz Tibb Universiteti arasında Memorandum imzalanıb, Pirallahı Sənaye Parkında İranla birgə əczaçılıq məhsullarının istehsalı zavodunun yaradılması işləri davam etdirilir. Azərbaycanın iqtisadiyyat naziri vurğulayıb ki, əczaçılıq məhsullarının istehsalı sahəsində İranın digər dərman istehsalı müəssisələri ilə də əlaqələr qurula bilər.

Görüşdə Azərbaycanda birgə dərman istehsalı, müalicə işinin birgə təşkili, səhiyyə sahəsində birgə elmi tədqiqatların aparılması, tibbi kadrların hazırlanması, İranın Azərbaycanda özəl xəstəxanalardan birini icarəyə götürməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

AZƏRTAC

# Mərkəzi Seçki Komissiyasında ATƏT Parlament Assambleyasının nümayəndə heyəti ilə görüş olub

**Martın 13-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Azərbaycanda səfərdə olan ATƏT Parlament Assambleyasının nümayəndə heyəti ilə görüşüb.**



MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sədr Məzahir Pənahov ATƏT Parlament Assambleyasının üzvü və koordinatoru, Portuqaliyadan olan millət vəkili xanım Nilza de Senanı və nümayəndə heyətini salamlayaraq prezident seçkiləri ərəfəsində keçirilən görüşdən məmnunluğunu ifadə edib və MSK-nın nüfuzlu beynəlxalq təşkilatlar və onların müxtəlif qurumları ilə qarşılıqlı faydalı əməkdaşlığına hər zaman xüsusi əhəmiyyət verdiyini bildirib. O qeyd edib ki, beynəlxalq təcrübənin öyrənilməsi seçki praktikasının daha da təkmilləşməsində mühüm əhəmiyyət kəsb edir.

Səmimi qəbula görə minnətdarlığını bildirən xanım Nilza de Sena Azərbaycan Respublikasının seçki sistemi, seçki komissiyalarının fəaliyyət prinsipləri və seçkilərə hazırlıqla bağlı görülmüş işlərlə maraqlanıb.

Qonaqların suallarını cavablandıran MSK sədri Məzahir Pənahov seçkilərin yüksək səviyyədə hazırlanması, azad, ədalətli və şəffaf keçirilməsi üçün görülmüş işlərdən ətraflı danışıb və həyata keçirilmiş genişmiqyaslı layihələri nümayəndə heyətinin diqqətinə çatdırıb.

Görüş çərçivəsində, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq respublikanın şəhər və rayon mərkəzlərində müəyyən edilmiş açıq və qapalı yerlər barədə

## MƏLUMAT

| № | Şəhər, rayon | Açıq yerlər | Qapalı yerlər |
|---|---|---|---|
| 1. | **Binəqədi** | Xocasən qəsəbə stadionu | 9-cu mikrorayon, Adil Məmmədov küçəsi 57 saylı binanın qarşısındakı Mərasim evi |
| 2. | **Xətai** | Zığ yolunda “Nargilə” dairəsinin yanındakı meydan | H.Z.Tağıyev adına Toxuculuq-Tikiş Kombinatının klubu |
| 3. | **Xəzər** | Şüvəlan qəsəbəsi, Lev Starçuk küçəsi 14-də yerləşən “AZAL-Arena” Stadionu | Şüvəlan qəsəbəsi, Lev Straçuk küçəsi 13-də yerləşən Mədəniyyət evi |
| 4. | **Qaradağ** | Lökbatan qəsəbə, 28 May küçəsində yerləşən “Neftçi” İdman Klubu Birliyinin Qaradağ Təlim İdman bazasının stadionu | Lökbatan qəsəbəsi, S.Orucov küçəsi 23-də yerləşən Ə.Əmirov adına Mədəniyyət sarayı |
| 5. | **Nərimanov** | Koroğlu Rəhimov və Fətəli Xan Xoyski küçələrinin kəsişməsində yerləşən parkın girişindəki meydan | Həsənoğlu küçəsi 2-də yerləşən Mərasim evi |
| 6. | **Nizami** | 8 km. yaşayış sahəsi, B.Nuriyev 69-da yerləşən idman meydançası | Keşlə qəsəbəsi, Sabir küçəsi 1 ünvanda yerləşən Mərasim evi |
| 7. | **Nəsimi** | 1-ci mikrorayon, A.Məhərrəmov küçəsi 27 A ünvanda yerləşən parkın yaxınındakı meydan | D.Əliyeva küçəsi 230-da yerləşən “Azərbaycan Dəmir Yolları” QSC-nin Akt zalı |
| 8. | **Sabunçu** | Sabunçu qəsəbəsi, İsmət Qayıbov adına stadion | Maştağa qəsəbəsi Hacağa Abbasov adına Mədəniyyət Evi |
| 9. | **Səbail** | 20-ci yaşayış sahəsi, Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Peşə Təhsil Mərkəzinin idman meydançası | Badamdar qəsəbəsi, Neftçilər döngəsi 2-də yerləşən Mərasim evi |
| 10. | **Suraxanı** | Hövsan qəsəbə Mədəniyyət Sarayının qarşısı | Qaraçuxur qəsəbəsi, Qurban Abbasov adına Mədəniyyət Sarayı |
| 11. | **Yasamal** | Mirəli Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən İdman Sağlamlıq Kompleksinin stadionu | A.M.Şərifzadə küçəsi 108, 110, 112, 114 və 116 saylı yaşayış binalarının həyətində yerləşən Mərasim evi |
| 12. | **Pirallahı** | Pirallahı qəsəbəsi, S.Vurğun küçəsi 56a saylı binanın qarşısındakı meydan | Pirallahı qəsəbə İdman Kompleksi |
| 13. | **Gəncə** | Heydər Əliyev adına Park-Xiyaban, “Zəfər Tağı”nın qarşısı | Gəncə Dövlət Filarmoniyası |
| 14. | **Sumqayıt** | Sumqayıt şəhər “Kimyaçılar” Mədəniyyət Sarayının qarşısı | “N.Nərimanov” kinoteatrı |
| 15. | **Yevlax** | Yevlax şəhəri C.Mustafayev küçəsi 112 ünvanda yerləşən şəhər stadionunun qarşısı | Yevlax şəhər Şahmat məktəbinin iclas zalı |
| 16. | **Şirvan** | Şirvan Olimpiya İdman Kompleksinin stadionu | Şirvan Olimpiya İdman Kompleksinin idman zalı |
| 17. | **Naftalan** | Naftalan şəhər stadionu | Qaşaltı Qaraqoyunlu kənd Mədəniyyət evi |
| 18. | **Mingəçevir** | Mingəçevir şəhəri “Bələdiyyə” meydanı | Naxçıvan küçəsi 44/10 ünvanda yerləşən Azər Niftəliyev adına Mədəniyyət evi |
| 19. | **Şəki** | Şəki şəhər stadionu | Şəki Dövlət Dram Teatrı |
| 20. | **Lənkəran** | Lənkəran şəhər Mərkəzi stadionu | Lənkəran şəhər Mədəniyyət Mərkəzi |
| 21. | **Abşeron** | Xırdalan şəhəri, Zərifə Əliyeva küçəsindəki meydan | Abşeron rayon Mədəniyyət Mərkəzi |
| 22. | **Ağcabədi** | Ağcabədi şəhər stadionu | Ağcabədi rayon Mədəniyyət evi |
| 23. | **Ağdam** | Ağdam Olimpiya İdman Kompleksinin stadionu | Quzanlı qəsəbə Mədəniyyət evi |
| 24. | **Ağdaş** | Ağdaş şəhər stadionu | Ağdaş rayon Mədəniyyət Mərkəzi |
| 25. | **Ağstafa** | Ağstafa şəhər stadionu | Ağstafa rayon Mədəniyyət Mərkəzi |
| 26. | **Ağsu** | Ağsu şəhər stadionu | Ağsu şəhər Uşaq Gənclər İnkişaf Mərkəzinin iclas zalı |
| 27. | **Astara** | Astara şəhəri, Mirzə Rəhimov küçəsi 1b-də yerləşən meydan | Astara rayon Mədəniyyət evi |
| 28. | **Balakən** | Balakən Olimpiya İdman Kompleksinin stadionu | Balakən rayon Mədəniyyət evi |
| 29. | **Beyləqan** | Beyləqan şəhər stadionu | Beyləqan rayon Mədəniyyət Sarayı |
| 30. | **Bərdə** | Bərdə şəhərində yerləşən “Qəhrəmanlar parkı”nın qarşısındakı meydan | Bərdə Mədəniyyət Mərkəzi |
| 31. | **Biləsuvar** | Biləsuvar şəhər Mərkəzi stadionu | Biləsuvar rayon Mədəniyyət Mərkəzi |
| 32. | **Cəlilabad** | Cəlilabad Olimpiya İdman Kompleksinin stadionu | Cəlilabad Olimpiya İdman Kompleksinin qapalı zalı |
| 33. | **Daşkəsən** | Daşkəsən şəhəri, Ş.İ.Xətai küçəsi 7-də yerləşən 5 saylı Körpələr evi və uşaq bağçasının qarşısındakı meydan | Daşkəsən rayon Mədəniyyət evi |
| 34. | **Füzuli** | Horadiz şəhərində yerləşən “Qəhrəmanlar parkı”nın qarşısındakı meydan | Horadiz şəhər Mədəniyyət evi |
| 35. | **Gədəbəy** | Gədəbəy şəhəri, “Hərbi vətənpərvərlik və mütəxəssis hazırlığı mərkəzi”nin təlim meydançası | Gədəbəy rayon Mədəniyyət evi |
| 36. | **Goranboy** | Goranboy şəhəri “Gənclər” parkı | Goranboy rayon Mədəniyyət Mərkəzi |
| 37. | **Göygöl** | Göygöl şəhər 5 saylı tam orta məktəbin yaxınlığındakı meydan | Göygöl rayon Mədəniyyət evi |
| 38. | **Göyçay** | Göyçay şəhər stadionu | Göyçay rayon Mədəniyyət Mərkəzi |
| 39. | **Hacıqabul** | Hacıqabul şəhər stadionu | Hacıqabul rayon Mədəniyyət evi |
| 40. | **Xaçmaz** | Xaçmaz Olimpiya İdman Kompleksinin stadionu | Xaçmaz Olimpiya İdman Kompleksinin qapalı stadionu |
| 41. | **Xızı** | Xızı şəhərinin girişində C.Cabbarlı parkı ilə üzbəüz boş ərazi | Xızı bələdiyyəsinin inzibati binasının iclas zalı |
| 42. | **İmişli** | İmişli Olimpiya İdman Kompleksinin stadionu | İmişli rayon Mədəniyyət evi |
| 43. | **İsmayıllı** | İsmayıllı şəhəri, Ağahüseyn Aslanov küçəsində yerləşən “Yaşıl Teatrı”ın ərazisi | İsmayıllı rayon Mədəniyyət Mərkəzi |
| 44. | **Kürdəmir** | Kürdəmir şəhər stadionu | Kürdəmir rayon Mədəniyyət Mərkəzi |
| 45. | **Qax** | Qax şəhər stadionu | Qax rayon Mədəniyyət evi |
| 46. | **Qazax** | Qazax şəhər stadionu | Qazax rayon Mədəniyyət Mərkəzi |
| 47. | **Qəbələ** | Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin stadionu | Qəbələ rayon Mədəniyyət Mərkəzi |
| 48. | **Qobustan** | Qobustan İdman Kompleksinin stadionu | Qobustan rayon Mədəniyyət evi |
| 49. | **Quba** | Quba şəhəri, Quba meydanı | Quba rayon Mədəniyyət Mərkəzi |
| 50. | **Qusar** | Qusar şəhər stadionu | Qusar rayon İncəsənət Məktəbinin akt zalı |
| 51. | **Lerik** | Lerik şəhər “Gənclik” stadionu | Lerik rayon Mədəniyyət Mərkəzi |
| 52. | **Masallı** | N.Gəncəvi adına Masallı şəhər parkı | N.Gəncəvi adına Masallı şəhər Mədəniyyət Mərkəzi |
| 53. | **Neftçala** | Neftçala şəhər stadionu | Neftçala rayon Folklor evi |
| 54. | **Oğuz** | Oğuz Olimpiya İdman Kompleksinin stadionu | Oğuz rayon Mədəniyyət evi |
| 55. | **Saatlı** | Saatlı Olimpiya İdman Kompleksinin stadionu | Saatlı rayon Mədəniyyət evi |
| 56. | **Sabirabad** | Sabirabad şəhəri İlham İsgəndərov küçəsi 1-də yerləşən binanın qarşısındakı meydan | Sabirabad rayon Mədəniyyət Mərkəzi |
| 57. | **Salyan** | Salyan Tarix Diyarşünaslıq Muzeyinin qarşısındakı meydan | Salyan rayon Mədəniyyət Mərkəzi |
| 58. | **Samux** | Samux rayon ƏSMM-nin qarşısındakı meydan | Samux rayon Mədəniyyət evi |
| 59. | **Siyəzən** | Siyəzən şəhər stadionu | Siyəzən rayon Mədəniyyət Mərkəzi |
| 60. | **Şabran** | Şabran şəhər stadionu | Şabran rayon Mədəniyyət Mərkəzi |
| 61. | **Şamaxı** | Şamaxı Olimpiya Mərkəzinin stadionu | Şamaxı rayon Mədəniyyət Mərkəzi |
| 62. | **Şəmkir** | Şəmkir Olimpiya İdman Kompleksinin qarşısındakı meydan | Şəmkir rayonu Ə.Cavad adına Mədəniyyət Mərkəzi |
| 63. | **Tərtər** | Tərtər şəhər stadionu | Tərtər rayon Mədəniyyət Mərkəzi |
| 64. | **Tovuz** | Tovuz şəhər stadionu | Tovuz rayon Mədəniyyət evi |
| 65. | **Ucar** | Ucar rayon Mədəniyyət Mərkəzinin qarşısındakı meydan | Ucar rayon Mədəniyyət Mərkəzi |
| 66. | **Yardımlı** | Yardımlı şəhər “Sahil” stadionu | Yardımlı rayon Mədəniyyət Mərkəzi |
| 67. | **Zaqatala** | Zaqatala Olimpiya Idman Kompleksinin stadionu | Zaqatala Olimpiya Idman Kompleksinin idman zalı |
| 68. | **Zərdab** | Zərdab şəhər stadionu | Zərdab rayon Mədəniyyət evi |
| 69. | **Cəbrayıl** | Biləsuvar rayonunda cəbrayıllı məcburi köçkünlər üçün salınmış 11 saylı qəsəbə klubunun qarşısındakı meydan | Biləsuvar rayonunda cəbrayıllı məcburi köçkünlər üçün salınmış 11 saylı qəsəbənin klubu |
| 70. | **Laçın** | Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsindəki futbol meydançası | Ağcabədi rayonu, Taxtakörpü qəsəbə klubu |
| 71. | **Kəlbəcər** | Gəncə şəhəri, Gülüstan qəsəbəsi, ADAU-nun 6 saylı yataqxanasının qarşısındakı meydan | Gəncə şəhəri, məcburi köçkünlər üçün salınmış 1500 ailəlik yeni yaşayış kompleksinin Mədəniyyət evi |
| 72. | **Şuşa** | Bakı şəhəri, Sabunçu rayonu Ramana-450 qəsəbəsi Malıbəyli kənd tam orta məktəbinin idman meydançası | Bakı şəhəri, Sabunçu rayonu Ramana-450 qəsəbəsi Malıbəyli musiqi məktəbinin akt zalı |
| 73. | **Xocalı** | Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbəsinin mərkəzi meydanı | Aşağı Ağcakənd qəsəbəsi, Xocalı rayon Mədəniyyət evi |
| 74. | **Xocavənd** | Beyləqan rayonu ərazisində salınmış 320 ailəlik qəsəbə musiqi məktəbinin qarşısındakı meydan | Beyləqan rayonu ərazisində salınmış 320 ailəlik qəsəbə musiqi məktəbinin akt zalı |
| 75. | **Zəngilan** | Abşeron rayonu Masazır qəsəbəsi, məcburi köçkünlər üçün salınmış şəhərciyin mərkəzi meydanı | Abşeron rayonu, Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınmış şəhərciyin Mədəniyyət evi |
| 76. | **Qubadlı** | Sumqayıt şəhəri,12-ci mikrorayon, Qubadlı rayon Çaytumas kənd tam orta məktəbinin idman meydançası | Sumqayıt şəhəri, “28 May” Mədəniyyət evi |

# Prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası Xarici İşlər Nazirliyi ilə birgə treninq təşkil edib

**2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası Xarici İşlər Nazirliyi ilə birgə treninq təşkil edib.**

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin rəisi səfir Faiq Bağırov qeyd edib ki, prezident seçkiləri ilə əlaqədar Seçki Məcəlləsindən və Konsulluq haqqında Əsasnamədən irəli gələrək Azərbaycanın xarici ölkələrdəki səfirlik və konsulluqlarında hazırlıq işləri görülür. Xarici işlər naziri Elmar Məmmədyarovun 21 fevral tarixli əmrinə əsasən, nazirliyin müvafiq idarələrinin əməkdaşlarından ibarət işçi qrup təşkil olunub. Xaricdəki konsulluqlarımızda 50-dən artıq vətəndaşımız qeydiyyatdadırsa həmin ölkədəki səfirlik və konsulluqlarımızda seçki məntəqələri yaradılır. Artıq 32 xarici ölkədəki səfirlik və konsulluqlarda 41 seçki məntəqəsi yaradılıb. Mərkəzi Seçki Komissiyasının köməyi ilə xarici ölkələrdə yaşayan hər bir vətəndaşımız konstitusion hüququndan istifadə edərək səs verəcək.

Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri Rövzət Qasımov Xarici İşlər Nazirliyinin ölkədən kənarda yaşayan vətəndaşlarımızın səsvermə hüququndan istifadə etmələri üçün yaratdığı şəraitə görə minnətdarlığını bildirib. O deyib ki, dünyanın əksər ölkələrindən fərqli olaraq Azərbaycan hökuməti təkcə ölkə daxilində yaşayan vətəndaşlarının deyil, xarici ölkələrdə yaşayan vətəndaşlarının da səsvermə hüquqlarını təmin edir. Xarici İşlər Nazirliyi bu sahədə böyük təcrübəyə malikdir. Hər seçkidə olduğu kimi, 11 aprel prezident seçkilərində də xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizdə məntəqələr yaradılıb. Səfirlik və konsulluqlarımızda yaradılan 29 məntəqənin nəticələri 17 saylı Yasamal üçüncü, 12 məntəqənin nəticələri isə 16 saylı Yasamal ikinci seçki dairələrinin nəticələri ilə qəbul olunacaq. Bu proses Mərkəzi Seçki Komissiyasının müvafiq qərarı ilə icra olunur.

Mərkəzi Seçki Komissiyasının Xarici İşlər Nazirliyi ilə səmərəli əməkdaşlığı və əvvəlki seçkilərdə əldə olunmuş uğurlu nəticələr onu deməyə əsas verir ki, bu il də xarici ölkələrdə yaşayan soydaşlarımızın səsvermə hüquqlarının təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün layihələr vaxtında və yüksək səviyyədə gerçəkləşdirilərək, vətəndaşlarımızın öz seçki hüquqlarından azad və sərbəst şəkildə istifadə etmələrinə geniş imkanlar yaradılacaq.

**AZƏRTAC**

# Seçki hüququ üzrə treninqlər davam edir

**Aprelin 11-də keçiriləcək növbəti prezident seçkiləri ilə bağlı məntəqə seçki komissiyalarının üzvləri üçün təşkil olunan seçki hüququ üzrə üçgünlük treninqlər davam edir. Mərkəzi Seçki Komissiyasının (MKS) təşkilatçılığı ilə martın 12-dən başlayan treninqlər 45 saylı Abşeron seçki dairəsi dairə seçki komissiyasında gün ərzində iki dəfə olmaqla yüksək fəallıq şəraitində keçir.**




AZƏRTAC xəbər verir ki, 45 saylı Abşeron seçki dairəsi dairə seçki komissiyasının sədri Dilşad Abbasova aşağı seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi proqramı çərçivəsində treninq iştirakçılarına məşğələlərin əhəmiyyəti barədə məlumat verib. Bildirilib ki, seçici siyahıları artıq dəqiqləşdirlib və seçicilərin öz adlarını görə biləcəyi yerlərə vurulub. Treninqdə seçki günü məntəqə sədrlərinin vəzifə borcları barədə bir daha məlumat verilib, sual doğura bilən məqamlar aydınlaşdırılıb.

Diskussiya formatında keçən treninqdə slaydlar vasitəsilə Seçki Məcəlləsinin bəzi maddələri ətraflı izah olunub.

Diqqətə çatdırılıb ki, 45 saylı Abşeron seçki dairəsinin tərkibində 36 seçki məntəqəsi var. Seçki dairəsində qeydiyyatda olan seçicilərin sayı isə 47 min 761 nəfərdir. 300 nəfər ilk dəfə səs verəcək.

Qeyd edək ki, treninqlər Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” əsasında təşkil olunur.

**AZƏRTAC**

*Prezident seçkiləri qarşısında*

# Hazırlıq işləri başa çatır

**Aprelin 11-də keçiriləcək Prezident seçkilərinə ölkəmizin hər yerində ciddi hazırlıq görülür. Oğuz və Qəbələ rayonlarında da bu yönümdə görülən işlər, seçkilərin yüksək mütəşəkkilliklə keçiriləcəyindən xəbər verir.**

## Oğuz

117 saylı Oğuz-Qəbələ dairə seçki komissiyasında olduq. Dairənin sədri Rəsul Cəfərov komissiya üzvləri ilə birlikdə növbəti iş günün icra olunmalı məsələlərini nəzərdən keçirir, operativ tapşırıqları müəyyənləşdirirdilər.

Dairə sədri ilə söhbətdən öyrəndik ki, 37-si Oğuzda və 24-ü Qəbələdə olan 61 seçki məntəqəsində 46 min 803 nəfər seçici var. Seçicilərin 26 min 376-sı Oğuz, 20 min 427-si Qəbələ rayonunun ərazisində yaşayır, 1364 seçici ölkəmizdə konstitusiyaya dəyişikliklə əlaqədar keçirilən referendumdan sonra ilk dəfə səsvermədə iştirak edəcəkdir. Seçicilərin 189 nəfəri 18 yaşına çatmış gənclərdir. Bu ilki seçicilərin sırasında Oğuzun 100 yaşlı 4 sakini də var. Siyahılar dəqiqləşdirilib, bütün məntəqələrdə görməli yerdə asılmışdır.

Dairənin əhatə etdiyi seçki məntəqələri yüksək keyfiyyətlə təmir olunmuş, lazımi inventar avadanlıqlarla təmin edilmişdir. Seçki məntəqələrinin 2-si müstəsna olmaqla hamısı ictimai binalardandır. Top kəndindəki 28 saylı, Kərimli kəndindəki 27 saylı seçki məntəqələri üçün isə yeni binalar tikilmişdir. Məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi üçün də lazım olan tədbirlər görülmüşdür.

Dairə seçki komissiyasının sədri Rəsul Cəfərov qeyd etdi ki, seçkiyə lap yaxın günlərdə seçicilərin olacaqları yerləri müəyyənləşdiriləcək, səsvermədə qeydiyyatda olduğu yerdə, məntəqədə səsvermək imkanı olmayan seçicinin həmin vaxtda yerləşdiyi ünvanda səsverməsi üçün müvafiq qaydalara, qanuna əsasən lazımi şərait yaradılması da təmin ediləcəkdir. Dairənin əhatə etdiyi 7 seçki məntəqəsində VEB kameralar quraşdırılmışdır. Əlil seçicilərin seçki günü məntəqələrə daxil olmalarını asanlaşdırmaq üçün 17 məntəqədə Pantuslar düzəldilib. Martın 18-dən başlanacaq təbliğat, təşviqat kampaniyasının da yüksək səviyyədə keçirilməsi üçün lazımi şəraitlər yaradılacaq.

Dairənin Qəbələ rayon ərazisindəki seçki məntəqələrinə baş çəkdik. Komissiya sədri **Edisson Hüseynovun** - Vəziyyətimiz göstərir ki, məntəqəmizdə seçkilər əvvəlkilərdən qat-qat yüksək səviyyədə keçəcək - sözlərinə komissiya üzvləri bir səslə - niyə də olmasın axı, ölkəmiz də, rayonumuz da, kəndimiz də günü-gündən çiçəklənir, inkişaf edir, adamların həyat səviyyəsində yaxşılığa doğru çoxlu uğurlar qazanılır - deyərək cavab vermələri seçki öncəsi Aydınqışlaq kəndindən seçki öncəsi aldığımız xoş təəssüratın təsdiqidi. Seçici siyahıları lövhələrdən asılmış, ən yaşlıların, xəstələrin, əlillərin siyahıları dəqiqləşdirilmişdir. Məntəqə sədri Edisson Hüseynov söhbət əsnasında dedi ki, 692 seçicinin arasında ilk dəfə səsvermələrdə 80-100 yaşında olanlar da var. Əlillərə, məntəqəyə gəlmək iqtidarı olmayanlara evlərə səsvermə qutuları aparılacaq. Gün ərzində məntəqəyə gəlib bəzi məlumatlar almaq istəyənlərə komissiya üzvləri tərəfindən hərtərəfli köməklik göstərilir.

793 seçicini birləşdirən 45 saylı məntəqə seçki komissiyasının sədri Etibar Valehov da siyasi kampaniyanın yüksək mütəşəkkilliklə keçirilməsinə hazır olduqlarını söylədi.

Həmzəlli kəndindəki 49 saylı seçki məntəqəsində 1177 nəfər seçicinin siyahısı xüsusi lövhələrdə görkəmli yerdə vurulmuşdur. Seçki komissiyasının katibi Nizami Səfərəliyevlə söhbət zamanı öyrəndik ki, 16 nəfər ilk dəfə səsvermədə iştirak edəcək, 30 seçicinin 80 dan çox yaşı var. Artıq 100 yaşı haqlayan Seyran Şəfiyeva komissiya üzvlərinə xəbər göndərib ki, seçki günü məntəqəyə gəlib respublikamızın daha firavan sabahı naminə səs verəcək.

## Qəbələ

Şəhərin bütün küçə və prospektlərinin görkəmli yerlərində vurulan aprelin 11-nin prezident seçkiləri günü olduğunu əks etdirən plakat və digər təşviqat vasitələri, müstəqillik illərinin hər birini yüksək uğurlarla yola salan Qəbələdə böyük coşqunluq, xoş əhval-ruhiyyə yaratdığını açıq-aydın hiss etdirirdi. Rastlaşıb həmsöhbət olduğum bir el ağsaqqalının - rayonumuz həmişə dövlətə, dövlətçiliyə xidmət edən siyasi kampaniyalarda bax, bu cür gözəl görkəm alır, adamlarımızın əmək coşğunluğu, daha firavan sabaha inamları birə on qat artır - kimi sözləri də bizim ilk təəssüratımızın doğrulduğunu təsdiqləyən amillərdən oldu. Rayondakı 116 saylı dairə seçki komissiyasından aldığımız ilkin məlumatlardan, baş çəkdiyimiz seçki məntəqələrindəki ürəkaçan vəziyyətlərdən də bir daha yəqinləşdirdik ki, Qəbələdə aprelin 11-də keçiriləcək növbədənkənar Prezident seçkilərinə geniş hazırlıq işləri görülür. Dairə seçki komissiyasının sədri **Ramiz Əsədovun** dediklərindən:

—Rayonumuzun qəsəbə və kəndlərində 54 seçki məntəqəmiz var. Onların hamısı lazımi iş şəraiti ilə, tələb olunan inventar avadanlıqla təmin edilmişdir. Seçicilərimizin sayı isə 43 min 743 nəfərdir. İlk dəfə səsvermədə iştirak edən seçicilərin sayı 1230 nəfərdir. Rayonumuzda 2 nəfər 100 yaşında, həmçinin 80-100 arasında yaşı olan 579 seçici də var. Bayramkoxalı Qiyafət Şükürovayla, Qışlar kəndinin sakini Şahnabat Əfəndiyevayla görüşdə deyiblər ki, özləri seçki məntəqəsinə gedib bülleten götürüb ən layiqli namizədə səsverməyi qərarlaşdırıblar. Bütün məntəqələr üzrə xəstələrə, əlillərə, yaşlılara evə səsvermə qutularının aparılmasını təmin edəcəklər. Bunun üçün də hər cür hazırlığımız var. Hər hansı təbii hadisə nəticəsində bəzən işıqlar sönür. Bax bunun üçün məntəqələrimizin hamısı generatorlarla təmin edilib. Ən ucqar kəndlərdə olan seçki məntəqəsi ilə telefon əlaqəsinin yaradılmasında problemimiz olmayacaq.

Seçkilərin şəffaflığının əks etdirilməsi məqsədilə 10 seçki məntəqəsində VEB kameralar quraşdırılmışdır. Məntəqə seçki komissiyalarının sədr və üzvlərinin fəal, seçki haqqında müvafiq qanun və təlimatlardan irəli gələn vəzifələrlə ətraflı məlumatlandırılması üçün hələ fevral ayının 21-24-də MSK tərəfindən seminarlar keçirilmişdir. Bir sözlə, ürəklə deyə bilərəm ki, Qəbələ aprelin 11-də olacaq növbədənkənar Prezident seçkilərinə hazırdır.

Yuxarıda qeyd etdiyimiz kimi, 116 saylı dairə seçki komissiyasını əhatə etdiyi məntəqələrdə də eyni vəziyyətlə rastlaşdıq. Şəhərdəki 2 saylı seçki məntəqəsinin sədri Nurdanə Müzəffərova söhbət zamanı qeyd etdi ki, tərtib olunub, xüsusi guşədə lövhələrdə asılan siyahılarda 1457 seçicinin adı var. Seçkilər gününə kimi onlardan gələn hər bir müraciətə, suala, təklifə məntəqəmizin üzvləri həssaslıqla yanaşırlar. Seçki günündə məntəqəyə gəlməyə heç cür imkanı olmayanlar əvvəlcədən müəyyənləşdirilib evlərinə komissiya üzvlərinin iştirakı ilə səsvermə qutusu aparılacaq. Məntəqəyə veb-kamerası quraşdırılmışdır. Biz orada olanda məntəqəyə gələn seçicilərdən bir neçəsi ilə həmsöhbət olduq.

**Eyyub Əhmədov:** - Səksən bir yaşım var. Çox seçkilərdə iştirak etmişəm. Amma bu müstəqillik illərinə təsadüf edən seçkilər mənim yaddaşıma daha əlamətdar və ürəkaçan hadisələri ilə həkk olunub. Ən başlıcası odur ki, müstəqillik illərinin hər birində ölkəmiz, Qəbələmiz öz inkişaf tarixinə çoxlu uğurlu səhifə yazmışdır. İndi Qəbələmizin sorağı dünyanın hər nöqtəsindən gəlir, əlbəttə, bu inkişafın, tərəqqinin bəhrəsidir. Belə olanda seçici də sevinir, səsvermədə fəal olur.

**Ayhan Səmədov:** - gənc seçiciyəm, ali məktəbdə oxuyuram. İlk dəfə səsvermədə iştirak edəcəyəm. Bunun üçün özümü xoşbəxtlərin xoşbəxti sayıram. Çünki daha firavan, nurlu sabahımıza səs verəcəyəm. Ölkəmizdə biz gənclərə də yüksək qayğı göstərilir. Biz də qayğılara əməli işimizlə cavab vermək, dövlətimizə, dövlətçiliyimizə sədaqətimizi nümayiş etdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Rasim AMANOV,**
**“Respublika”.**

# Ermənistandakı sosial-iqtisadi və kriminal vəziyyət terrorçu rejimi məğlubiyyətə aparır

**Dünyada ikinci elə bir millət yoxdur ki, onun yaratdığı hər hansı bir partiya, ermənilərin yaratdıqları partiyalar ("Armenakan" 1885-ci il, "Qnçak" 1887-ci il, "Daşnaksütyun" 1990-cı il və s.), o cümlədən Ermənistanın bu gün iqtidarda olan hakim Respublika Partiyası kimi terroru siyasi mübarizə vasitəsi kimi seçsin! Erməni partiyaları, Türkiyə, İran və Azərbaycan torpaqlarında, "böyük Ermənistan" dövləti qurmaq məqsədilə 100 ildən artıq bir dövr ərzində türklərə və azərbaycanlılara qarşı terror aksiyalarının təşkili ilə məşğul olublar.**

1896-cı ildə erməni terrorçuları təzəcə yaratdıqları "Daşnaksütyun" partiyasının təşkilatçılığı ilə sensassiyaya səbəb olan bir terror aktı həyata keçirərək beynəlxalq terrorizmin əsasını qoydular. Onlar günün günorta çağı İstanbulda Ottaman beynəlxalq bankına sıxışaraq orada olan adamların hamısını girov götürdülər. Tələbləri də bu oldu ki, dünyanın aparıcı dövlətləri, Türkiyənin şərq vilayətlərində, Türkiyəni ermənilərin xeyrinə reforma keçirməyə məcbur etsinlər. Əks təqdirdə, bankı girovlarla birlikdə partladacaqlar. Diplomatlar isə qarışıqdan sonra terrorçular bankdan qarət etdikləri pullarla birlikdə bankı tərk edib, fransız gəmisi ilə Marselə çatdırıldılar. Marsel, terrorçuları erməni diasporunun qəhrəmanları kimi qarşıladı. Ən dəhşətlisi isə odur ki, belə bir ağır cinayət törətmiş quldurların heç biri cinayət məsuliyyətinə cəlb edilmədi.

15 mart 1921-ci ildə Berlində yüzlərlə şahidin gözü önündə Soqomon Teyleryan adlı erməni tərəfindən Osmanlı hökumətinin hərbi naziri Tələt paşa qətlə yetirildi, lakin bu qatil də cəzalandırılmadı. Berlin Dairə Məhkəməsi terrorçuya bəraət hökmü çıxardı. Dünya birliyi isə bu biabırçılığa göz yumdu, susdu. Berlin Dairə Məhkəməsinin bu ədalətsiz hökmündən sonra daha da əzğinlaşan ermənilərin onlarla terror təşkilatı XX əsr boyu müsəlmanlara, xüsusilə türklərə və azərbaycanlılara qarşı çoxlu terror aksiyaları həyata keçirərək minlərlə günahsız insanın məhv etdi. Ermənilərin təkcə "ASALA" terror qruplaşması 1975-1985-ci illərdə 21 ölkənin 38 şəhərində 110-dan artıq terror aktları təşkil etdi.

1988-1995-ci illərdə Azərbaycan ərazisində ermənilər tərəfindən yüzlərlə terror aktları törədildi ki, nəticədə 1568 nəfər həlak oldu, 1808 nəfər yaralandı. Bütün bu faciələrə başda ABŞ olmaqla dünya birliyi ciddi reaksiya vermədi. Hətta 1992-ci il fevralın 26-da erməni terrorçuları XX əsrin ən dəhşətli soyqırımlarından birini - Xocalı soyqırımını törədəndə də, ABŞ və Avropa ölkələri, terror bumeranqının zərbəsini öz üzərlərində hiss edənədək susmağı üstün tutdular. İslam dinini hörmətdən salmaq, müsəlmanları müsəlmanların əli ilə qırdırmaq məqsədilə özlərinin yaratdıqları radikal terror təşkilatları ("Əl Kaidə", "PKK", "İŞİD" və s.) yalnız onların öz şəhər və qəsəbələrində partlayışlar törədəndə, insanları qətlə yetirəndə etiraz nümayişləri keçirməyə, tədbir görməyə başladılar. Ancaq yenə də anlamadılar, bəlkə də anlamaq istəmədilər ki, bu gün tüğyan edən terror, dünya birliyinin vaxtilə reaksiya vermək istəmədiyi erməni terrorunun varisidir, onun davamıdır. Odur ki, həm XX əsrdə müsəlmanlara qarşı erməni terrorunun törətdiyi qırğınlara, həm də bügünkü terrorun həyata keçirdiyi cinayətlərə görə məsuliyyət dünya birliyinin, xüsusilə, terrorun kökünü kəsmək naminə birləşməyə, birgə mübarizə aparmağa meyilləri olmayan iri dövlətlərin üzərinə düşür.

Azərbaycan BMT Təhlükəsizlik Şurasında sədrlik edərkən, 2012-ci il mayın 4-də ölkə Prezidenti İlham Əliyev erməni terrorunun törətdiyi qırğınları, vəhşilikləri misal çəkərək dünya birliyini terrorizmə qarşı birləşməyə çağırdı. Təəssüf ki, o vaxt İlham Əliyevə qulaq asmadılar. Qərb terrorçuları "yaxşı" və "pis"ə ayırdı, eyni zamanda o dövrdə yenicə formalaşmaqda olan "İŞİD" və digər terror təşkilatlarının güclənməsinin qarşısını almaq əvəzinə, onların daha da böyüməsinə, təşkilatlanmasına imkan verdi. Əlbəttə, vaxtilə Azərbaycan Prezidentinin səsinə səs verilsəydi, sözsüz ki, son 5-6 ildə terrorun törətdiyi faciələrə, qırğınlara, yüz minlərlə insan tələfatına, milyonlarla adamın məcburiyyət qarşısında öz yurd-yuvalarından qaçqın düşmələrinə yol verilməzdi.

Görünür, dünya birliyində müəyyən siyasi qüvvələr XX əsrin 90-cı illərində Azərbaycana qarşı erməni terrorçularından istifadə etdikləri kimi, yeri gələndə öz məqsədlərinə nail olmaq üçün, XXI əsrdə də yaratdıqları bu terror təşkilatlarından istifadə etmək fikrində olduqlarından onu məhv etməkdə maraqlı deyillər.

XX əsrin sonlarında Ermənistana verilən maliyyə, hərbi və siyasi dəstəklər terror dövləti olan Ermənistanı Azərbaycan torpaqlarının bir hissəsini işğal etməyə və insanlığa sığışmayan ağır cinayətlər törətməyə səbəb oldu. Eyni zamanda xaricdən verilən bu dəstəklər "böyük Ermənistan" dövləti qurmaq xülyası ilə yaşayan Ermənistan rəhbərlərində və erməni ideoloqlarında belə bir əminlik yaratdı ki, diasporun və lobbizmin köməkliyi ilə onların strateji məqsədlərinə çatdıracaq: Erməni diasporu ölkənin iqtisadi inkişafı üçün sərmayə axınını təmin edəcək, siyasi lobbizm isə dünyanın aparıcı ölkələrinin siyasətini Ermənistanın xeyrinə yönəldə biləcəkdir. Lakin Ermənistan rəsmilərinin bu ümidləri demək olar ki, boşa çıxdı. İri dövlətlərin yürütdükləri siyasəti Ermənistan dövlətinin xeyrinə istiqamətləndirməyə isə siyasi lobbizmin gücü çatmadı: Azərbaycanın həyata keçirdiyi düşünülmüş xarici siyasət buna imkan vermədi.

Bu gün Ermənistan öz işğalçı siyasətinin cəzasını çəkməkdədir: iqtisadiyyatı bərbad hala düşdüyündən, sosial problemlər həll edilmədiyindən, yoxsulluq və işsizlik baş alıb gedir. İnsanların, xüsusilə, əsasən fəal, sağlam, ixtisaslı gənclərin dəhşətli axınla mühacirət etməsi isə demək olar ki, milli bədbəxtliyə çevrilib. Ermənistanın "Birinci informasiya" kanalının verdiyi məlumata görə, "adamların ölkəni tərk etmələrinin əsas səbəbi ölkədə iqtisadi perspektivin olmaması və müharibə təhlükəsidir". Bu məlumatdan aydın olur ki, təkcə 2016-cı ildə Ermənistan vətəndaşlarından 22000 nəfəri Rusiya Federasiyasının vətəndaşlığını qəbul edib, 19000 nəfəri isə bu ölkədə yaşayış icazəsi alıb. NEWS.am Ermənistan xəbər agentliyinin açıqlamasına görə isə 2012-ci ildən 2017-ci ilədək ölkənin 15000 nəfəri Ermənistan vətəndaşlığından imtina edib.

Son 25 ildə Ermənistan hakimiyyətindən narazı olan və ölkəni tərk edən insanlar erməni diasporunun tərkibini də keyfiyyət cəhətdən dəyişdiriblər. "Birinci informasiya"nın göstərdiyinə görə "mühacirət nəinki Ermənistanın sosial simasını eybəcərləşdirdi, ...həm də diasporu keyfiyyətcə dəyişdirərək Ermənistanın təhlükəsizliyini sual altına qoydu".

Bu dövlət yarandığı tarixdən ona daim hərtərəfli yardım əlini uzadan erməni diasporu bu gün həqiqətən Ermənistan rəhbərliyi üçün təhlükə mənbəyinə çevrilmişdi. Son illər Yerevanda baş verən terror aktları, terror bumeranqının zərbələrinin diaspor tərəfindən hakim rejimə qarşı istiqamətləndirildiyindən xəbər verir.

Son 2 ildə Yerevanda müntəzəm olaraq terror aktları həyata keçirilir: 26 aprel 2016-cı ildə Yerevanda sərnişin avtobusu partladıldı. Həmin il iyulun 17-də isə "Sasna Tser" ("Sasun üsyançıları") terror təşkilatının üzvləri paytaxtın mərkəzi rayonlarının birində polis patrul xidmətinin bazasını ələ keçirərək 2 həftə əllərində saxlayıb, bir nəfər polis nəfərini də qətlə yetirdilər. 2017-ci ilin ortalarında qondarma "DQR"nın keçmiş "baş naziri" Samvel Babayan həmfikirləri ilə birlikdə, Serj Sarkisyanın vertolyotunu vurmaq məqsədilə Ermənistana "iqla" adlı hərəkət edən zenit-raket kompleksi gətirir. 2017-ci il avqustun 2-də Yerevan şəhərindəki evlərin biri partladılır: bir nəfər ölür, bir nəfər isə ağır yaralanır. Axtarış zamanı həmin evdən çoxlu silahsursat - 2 ədəd 120 millimetrlik artilleriya mərmisi, 1 ədəd tanka qarşı minamyot və 1 ədəd raket mərmisi aşkar edilir.

2017-ci ilin dekabrında isə Ermənistanın xüsusi xidmət orqanları erməni diasporu nümayəndəsinin ölkədə terakt hazırlaması barədə sensassiyaya səbəb olan bir məlumat yaydı. Verilən məlumatda deyilir ki, milliyyətcə erməni olan ABŞ vətəndaşı R.K. 2017-ci ilin sentyabrında "Feysbuk" sosial saytında "Ədalət uğrunda döyüşçülər" adlı qrup yaratdığı barədə material dərc etdirib və bu təşkilatın adından adamları Ermənistan Respublikasının vəzifəli şəxslərinə, hüquq-mühafizə orqanlarına qarşı güc tətbiq etməyə çağırış edib. Bu məlumatdan möhkəm qorxuya düşən Ermənistan rəsmiləri R.K.-nı ələ keçirib cəzalandırmaq üçün axtarış elan ediblər. Kriminal-oliqarx rejim rəsmilərinin qorxuya düşmələri əsassız deyil. Axı S.Sarkisyanın əhatəsindəki rəsmilər öz hakimiyyətlərinin ömrünü uzatmaq üçün çalışırdılar ki, onu səs-küysüz prezident kürsüsündən, bu ilin aprelində dövlət idarəçiliyində əsas səlahiyyətlərə yiyələnəcək baş nazir kürsüsündə əyləşdirsinlər. Hazırda bu proses baş verib. Ermənistanda parlament idarəetməsi nəticəsində əsas səlahiyyətlər parlamentin seçdiyi prezidentdə deyil... Ən mühümü isə ölkənin əvvəlki militaristi, işğalçı və neofaşizm yolu ilə getməsidir.

Bu dəyişiklik hazırkı irqçi, neofaşisit, monoetnik, işğalçı Ermənistanda pozitiv prosesə səbəb olacaqmı? Biz terrorçu iqtidarla terror qruplarının hakmiyyət uğrunda mübarizəsinin şahidi olmuşuq.

**Zahiddin ABBASOV,**
**Silahlı Qüvvələr veteranı, istefada olan ədliyyə polkovnik-leytenantı.**

# Qabaqcıl incəsənət məktəbi



Respublikada fəaliyyət göstərən çoxsaylı musiqi məktəbləri içərisində F.Əmirov adına 6 nömrəli incəsənət məktəbi xüsusi olaraq seçilir. Məktəb 1962-ci ilə qədər 11 nömrəli musiqi məktəbinin tərkibində fəaliyyət göstərmiş, 1962-ci ildən sonra 18 nömrəli musiqi məktəbi kimi qeydə alınmışdır. 1999-cu ildə Respublika Nazirlər Kabinetinin qərarı ilə F.Əmirov adına 6 saylı incəsənət 2005-ci ildən isə onbirillik incəsənət məktəbi statususnu almışdır. Təsis olunduğu ilk illər ərzində cəmi 58 şagird və 7 müəllim heyətindən ibarət olan məktəb bu gün 340 şagird və 77 müəllim heyəti ilə musiqi, xoreoqrafiya, rəssamlıq şöbələri ilə fəaliyyət göstərir.

Fərəhlə qeyd etmək lazımdır ki, bu məktəb fəaliyyətə başladığı 1962-ci ildən indiyə qədər respublikamızda tanınmış mütəxəssislər yetirmişdir. Onlar arasinda Əməkdar incəsənət xadimi S.Fərəcov, Azərbaycan Respublikasının Xalq artisti M.Müslümov, S.Şükürov, V.Məstanov, N.Rzazadə və digərlərini nümunə göstərmək olar.

Müxtəlif illərdə məktəbə təcrübəli, musiqi və incəsənətin bir sıra sahələrində çalışan insanlar cəlb olunmuş və bu ənənə bu gün də davam etdirilir. Misal üçün, Azərbaycan Respublikasının Xalq artistləri Əlibaba Məmmədov, Ağaxan Abdullayev, Məmmədbağır Bağırzadə ,Ramiz Quliyev, Kamil Dadaşov, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, Azərbaycan Respublikasının Əməkdar artisti Zemfira Həsənova, Vaqif Məstanov və digərlərini göstərmək olar. Məktəb bu gün də öz məzunları ilə fəxr edir: Beynəlxalq Muğam Müsabiqəsinin laureatı B.Niftəliyev, Prezident təqaüdçüsü, respublika və beynəlxalq müsabiqələr laureatı O.Şərifov, R.Əziz, E.Məmmədov, İ.İbadova, V.İsgəndərov bu qəbildəndir. Çox fərəhli haldır ki, 55 illik musiqi həyatında məktəbin yüzlərlə məzunu BMA, Milli Konservatoriya, Azərbaycan Rəssamlıq və Xoreoqrafiya Akademiyalarına və müxtəlif ali məktəblərə daxil olmuşlar.



Yarıməsrlik fəaliyyəti ərzində məktəbdə Məmmədov Yusif, Hüseynov Nadir, Məmmədov Tofiq, Həsənov Mürsəl, Əliyev Nəriman kimi direktorlar fəaliyyət göstərmiş və bu gün məktəbə professor, Əməkdar müəllim, bəstəkar Adilə Yusifova rəhbərlik edir. Aparılan düzgün musiqi siyasətinin nəticəsidir ki, respublikada keçirilən müxtəlif nominasiyalar üzrə müsabiqələrdə məktəbin şagirdləri laureat və s. adlara layiq görülmüşlər. Bu baxımdan, mötəbər musiqi konkurslarında məktəbin şagirdləri olduqca fəal iştirak edirlər və heç bir şübhə yoxdur ki, bu naliyyətlərin əldə olunmasında başda Adilə xanım Yusifova olmaqla kollektivin bütün üzvlərinin əməyi danılmazdır.

Burada tez-tez müxtəlif səpkili tədbirlər keçirilir, musiqi və digər incəsənət sahələrinin ən tanınmış simaları ilə görüşlər təşkil olunur. Belə ki, məktəbin həyatında ən əhəmiyyətli tədbirlərdən Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Oqtay Rəcəbovla görüşlərin keçirilməsi xüsusi vurğulanmalıdır. Məktəbdə tez-tez yaradıcılıq mübadilələri, ustad dərsləri keçirilir, T.Hacıyev, N.Rzazadə kimi təcrübəli ifaçılar gənc ifaçılarla öz təcrübələrini bölüşürlər. Məktəbin ən böyük naliyyətlərindən biri də məktəbdə iki il ərzində "F.Əmirovun əsərlərini ifa və təhlil edirik" adlı elmi-ifaçılıq konfransının keçirilməsidir ki, məhz bu əlamətdar hadisə musiqi ictimaiyyətində geniş əks-sədaya səbəb olmuşdur.

**Zabit CAVADOV,**
**"Respublika".**

# Nümunəvi baytarlıq xidməti qida təhlükəsizliyinə təminat verir

Cəbrayıl sakinləri kənd təsərrüfatının bütün sahələrinə, o cümlədən heyvandarlığın inkişafına daima xüsusi diqqət yetirmişlər. Erməni qəsbkarları münbit torpaqları, geniş otlaq sahələri olan Cəbrayılı işğal etdikdən sonra da çətin keçən qaçqınlıq həyatında rayonun zəhmətkeş insanları öz dədə-baba peşəsini unutmamışlar. Biləsuvar rayonu ərazisində müvəqqəti məskunlaşan cəbrayıllılar yardımçı təsərrüfatda iribuynuzlu mal-qara, davar, dəvə bəsləyirlər. Qaçqın şəhərciyindən bir qədər kənarda, Muğan düzündə yerləşən yataqlarda fermerlər iri təsərrüfatlar yaradıb heyvandarlığı inkişaf etdirirlər. Təbii ki, təsərrüfatın bu sahəsində irəliləyiş, inkişaf nümunəvi baytarlıq xidməti olmadan mümkün deyil. Rayon Baytarlıq İdarəsinin rəisi **İlham Şahverdiyev** ərazidə aparılan epizootik tədbirlər barədə məlumat verdi:

– Baytarlıq xidmətini nümunəvi təşkil etmək üçün ilk növbədə möhkəm baza, əlverişli şərait olmalıdır. Dərin razılıq hissi ilə bildirməliyəm ki, Respublika Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Nəzarəti Xidməti rayonumuzda heyvandarlığın inkişafı naminə bizə hər cür şərait yaratmışdır. Hazırda rayonumuzda Baytar-Sanitar Ekspertiza Laboratoriyası, Diaqnostik Kabinet, Sərhəd (Zolaq) Baytarlıq Nəzarəti Məntəqəsi, 7 Baytarlıq sahəsi fəaliyyət göstərir. 32 nəfər baytar təsərrüfat sahiblərinin çağırışlarını dərhal icra edir, qarşıya çıxan bu və ya digər problemi yerindəcə aradan qaldırırlar.

Ötən illərdə olduğu kimi, 2017-ci ildə də epizootiya əleyhinə profilaktiki və diaqnostik tədbirlər planına əməl etmişik. İl ərzində 10.580 baş iribuynuzlu, 109.308 baş xırdabuynuzlu heyvanlarda qarayara xəstəliyinə qarşı profilaktik peyvəndləmələr aparılmışdır. Dabaq, quduzluq, nodulyar-dermatit, leptosprioz, çiçək xəstəliklərinə qarşı istər iribuynuzlu, istər davar, təkdırnaqlı heyvanlarda aparılan peyvəndləmələr öz səmərəli nəticəsini göstərməkdədir. Həssas heyvanlar arasında brusellyoz xəstəliyini aşkar etmək məqsədilə 2012 baş iribuynuzlu,1183 baş xırdabuynuzlu heyvanlar seroloji müayinəyə cəlb edilmiş, müayinə nəticəsində aşkar olunmuş 6 baş xırdabuynuzlu heyvanlar təlimata əsasən zərərsizləşdirilmişdir. Brusellyoz xəstəliyinə qarşı 21.388 baş xırdabuynuzlu heyvanlar REV-1 vaksini ilə profilaktiki peyvənd edilmiş, eyni zamanda 1183 baş törədici qoç epidemitə qarşı müayinə aparılmışdır. 1100 baş iribuynuzlu heyvanlar vərəm xəstəliyinə qarşı müayinəyə cəlb edilmişdir.

Qida təhlükəsizliyi heç şübhəsiz ki, baytarlıq təbabətinin nümunəvi təşkilindən asılıdır. Keçən il heyvan mənşəli qida məhsullarının təhlükəsizliyinin təmin olunması məqsədi ilə Baytarlıq-Sanitariya Ekspertiza Laboratoriyası öz nəzarətini gücləndirmişdir.

Artıq 2018-ci ilə qədəm qoymuşuq. Təkcə yanvar ayında 10.005 baş iribuynuzlu, 257 baş at, 105 baş dəvələrdə qarayara əleyhinə profilaktiki peyvəndləmə aparılmışdır. 53.580 baş taun əleyhinə peyvəndləmə tədbiri görülmüşdür. Hazırda brusellyoz xəstəliyini aşkar etmək məqsədi ilə iribuynuzlu heyvanların planlı qan nümunələri götürülür. Bununla paralel dabaq xəstəliyi əleyhinə profilaktiki pevəndləmə aparılır.

**Qələmə aldı:**
**Tofiq HÜSEYN,**
**"Respublika".**

*Yol xatirələri*

# "İstoçnik" sanatoriyasının şöhrəti

**Səhhətimdə yaranan problemlərlə bağlı müalicə üçün dünyanın bir sıra ölkələrində olsam da bir nəticə əldə etməmişdim. Bir dəfə yaxın bir dostum nə üçün Yessentuki şəhərində olan sanatoriyaların birində müalicə olunmadığımı soruşdu. Xəbər aldım ki, ora getsəm müalicənin effekti ola bilərmi? O mənə Yessentukidə yeni bir müalicə kompleksinin istifadəyə verildiyini və orada mənim xəstəliyimlə bağlı da müalicənin aparıldığını söylədi. Qərara aldım ki, Yessentukiyə getməliyəm.**

Yessentuki şəhəri Böyük Qafqazın Mineralnı Vodı stansiyası ilə Kislovodsk arasındakı 45 kilometrlik məsafədə yerləşdiyindən son illərdə burada mövcud olan Yessentuki sularının bazasında çoxsaylı sanatoriya tikilib istifadəyə verilmişdir. Aldığım məlumatlara əsasən bu şəhərdə 100000-dən çox əhali yaşayır. Əhalinin işlə təminatının əsasını təşkil edən Yessentuki sularının bazası əsasında mövcud olan sanatoriya istirahət kompleksləri hər il Rusiya, eləcə də MDB məkanı əhalisinin 250-300 min nəfərə qədərini qəbul etmək iqtidarına malikdir. Məlumat üçün qeyd edək ki, Yessentuki sularının istifadəsinə ilk dəfə 1810-cu ildə başlanılmış, qısa müddət ərzində bu ərazi Rusiyanın ən nəhəng istirahət zonalarından birinə çevrilmişdir. Onu da deməliyəm ki, başqa sözlə, təbii yolla təzyiq altında çıxdığı halda buradakı sular buruq üsulu ilə qazılan quyulardan çıxmaqla öz keyfiyyətini bu günə qədər saxlamaqdadır. Şəhərdə Yessentuki sularının fəaliyyətini nizamlayan, onların gündəlik rejimini və tərkibini müəyyən edən böyük bir elm istehsalat mərkəzi fəaliyyət göstərir. Bundan başqa, Yessentuki mineral sularının yerlərdə qablaşdırma müəssisələri mövcuddur ki, onun nəticəsində Yessentuki suları Rusiyanın, eləcə də MDB-nin digər ölkələrinə ixrac edilir. Böyük əhəmiyyət daşıyan Yessentuki suyunun əsasında 100 minlik bir şəhərin əhalisini işlə təmin etmək imkanları çox yüksək qiymətləndirilir. Bizim məqsədimiz mineral sular haqqında deyil, burada mövcud olan nəhəng "İstoçnik" sanatoriyası haqqında məlumat verməkdir. Ən əsası da ona görə ki, "İstoçnik"in tikintisi azərbaycanlı iş adamının qoyduğu investisiya əsasında başa gəlmişdir.

Həyat yoldaşımla birlikdə Yessentukiyə getmək üçün Heydər Əliyev adına hava limanına gəldik. Bu hava limanı bizdə böyük bir qürur hissi oyatdı. Çünki dünyanın 70-ə yaxın ölkəsində olan bir şəxs kimi deyə bilərəm ki, heç bir yerdə belə hava limanı görməmişdim. Bir neçə saatlıq uçuşdan sonra Mineralnıye Vodı təyyarə limanında təyyarəmiz yerə endi. Bilirsiniz ki, Mineralnıye Vodı Rusiyanın cənubunda nəhəng hava limanıdır. Lakin buna baxmayaraq, Heydər Əliyev adına təyyarə limanından fərqli olaraq keçmiş sovet dövründən qalma, çox primitiv şəkildə olan bir təyyarə limanı ilə rastlaşdıq. Bakı şəhərindən gələn "Buta" şirkətinə məxsus təyyarədə olan şəxslərin qeydiyyatdan keçməsi üçün çox da ciddi yoxlanış olmayan bir şəraitdə biz 2 saata yaxın vaxt sərf etməli olduq. Çünki bizi buraxan şəxslərin tək-tək və uzun sürən sorğu-sualından sonra, nəhayət, öz yükümüzü götürüb Yessentukiyə yollandıq.

Biz Yessentuki şəhərində son illərdə istifadəyə verilmiş "İstoçnik" sanatoriyasına çatdıq. Yeni tikilmiş bu kompleksə hər il Rusiyanın, MDB-nin ayrı-ayrı bölgələrindən, xarici ölkələrdən, o cümlədən Azərbaycandan çoxlu sayda vətəndaş öz sağlamlıqlarını bərpa etmək üçün gəlirlər. Məşhur



Yessentuki suyu bu sanatoriyanın şöhrətini daha da artırıb. Açığını deyim ki, buradakı şəraitə heyran oldum. Dünyanın müxtəlif ölkələrində qaldığım istirahət mərkəzləri, mehmanxanalar, 3-4-5 ulduzlu otellərlə buranı müqayisə etdikdə gördüm ki, əsl Avropa tipli sanatoriyadır. Buraya gələnlərin sağlamlıqlarını bərpa etmək üçün dünyanın müxtəlif ölkələrindən ən müasir avadanlıqlar alınmışdır.

Sanatoriyada Azərbaycan musiqisinin xoş sədalarını eşitmək bizdə doğma ovqat yaradırdı. Azərbaycanda mövcud olan bütün telekanalların yayımı buraya istirahət və müalicə üçün gələn azərbaycanlıların üstünlük təşkil etməsinə səbəb olan amillərdən biridir. Buraya istirahətə gələnləri qonaqpərvərliklə qarşılayan işçilərin gülərüz olması da böyük şərtdir. Burada olduğumuz müddətdə bizim üçün təyin olunan müalicə üsullarından çox razı qaldıq.

"İstoçnik" sanatoriyasının bizdə oyatdığı xoş əhval-ruhiyyə ilə baş həkim Olqa Qriqoriyevna ilə görüşdük. Bu qadında olan sadəliyə valeh oldum. Tutduğu vəzifədən asılı olmayaraq nə qədər sadə və mehribandır. Kompleks haqqında məqalə yazmaq istədiyimi bildirdim. Məmnuniyyətlə bizim suallarımıza cavab verdi. Mən ondan burada çalışan işçilərin sayı, onların neçəsinin ali təhsilli, neçəsinin orta ixtisas təhsilli mütəxəssis olduğunu soruşdum. O qeyd etdi ki, orada çalışan həkimlərin hamısı professional həkimlərdir. Olqa xanımın Yessentukidə yerləşən sanatoriyalardakı iş təcrübəsi 30 ildən çoxdur. Danışığımız əsnasında gördüm ki, o, peşəsini necə çox sevir, işini necə böyük həvəslə görür. Söhbətimizin davamı olaraq o məndən məqalə yazarkən İrina Viktorinovanı, endokrinoloq Mariya İvanovnanın və digərlərinin adlarını qeyd etməklə bərabər, burada çalışan tibb bacılarının - Zaxarova Anastasiyanın, Kuzminko Oksananın, Qriqoryeva Nataliyanın, Aygül xanımın xidmətlərini xüsusilə qeyd etməyimi xahiş etdi. Buradakı personalın milliyyəti barədə soruşduqda Olqa xanım gülərək bizə bildirdi ki, bilirəm siz burada ermənilərin çalışıb-çalışmamasıyla bağlı maraqlanırsınız. Amma burda bir nəfər də olsun erməni çalışmır. Bu sözün əsl mənasında bizim ürəyimizcə oldu. Biz ona yuxarıda adları çəkilən tibb bacılarına öz dərin minnətdarlığımızı bildirməsini xahiş etdik. Ümumiyyətlə Olqa Qriqoryevna burada olan müalicə metodları haqqında bizə ətraflı məlumat verdi. Məlum oldu ki, burada təbii müalicə metodlarından daha geniş istifadə olunur. Burada mövcud olan diaqnostika, konsultasiya otaqlarında çoxsaylı müalicə metodlarından istifadə etməklə insanlar öz sağlamlıqlarını bərpa edirlər və bunun nəticəsində daha yaxşı fəaliyyət göstərə bilirlər. Biz gəzdiyimiz müalicə otaqlarında ideal təmizliyin şahidi olduq. Bütün müalicə metodlarının hava şəraitindən asılı olmayaraq qapalı şəraitdə davam etməsi Yessentukidə yerləşən digər sanatoriyalar içərisində bu sanatoriyanın şöhrətini daha da artırmışdır. Biz burada olduğumuz müddətdə buradakı insanların necə doğma, mehriban olmasını bir daha müşahidə etdim. Hansı bölməyə gedirsənsə, sənə çox yaxşı münasibət göstərilir və qulluğunda dururlar. Burada xidmət yüksək səviyyədə təşkil olunmuşdur. Hesab edirəm ki, bu işdə kompleksin baş həkiminin xüsusi rolu vardır.

Bu sanatoriyanın istifadəyə verildiyi qısa müddətdə Rusiyadan, MDB-yə daxil olan ölkələrdən və Avropa ölkələrindən bura istirahət üçün, öz sağlamlıqlarını bərpa etmək üçün gələnlərin sayı minlərlədir. Bir cəhəti xüsusi olaraq qeyd etmək istəyirəm ki, Yessentuki şəhərində bu tipli sanatoriya çox olsa da, bu gün sağlamlıqlarını bərpa etmək üçün gələnlərin sayına görə birinci yerdə "İstoçnik" sanatoriyası durur. "İstoçnik" sanatoriyası 10 mərtəbəli iki korpusdan ibarətdir. Burada təxminən 222 komfortlu və yüksək keyfiyyətli otaq var. Bunun 102-si standart nömrələrdən, 89-u komfort nömrələrdən, 29-u lüks nömrələrdən, 2 nömrə isə apartament nömrələrdən ibarət olmaqla bir dəfəyə təxminən 400-500 insanı qəbul etmək gücünə malikdir. Burada hər bir şey yüksək keyfiyyətdədir və insan sağlamlığı üçün lazım olan hər şey nəzərə alınmışdır. Bundan başqa VİP salonda təxminən 100 nəfərin yemək yeməsi üçün şərait vardır. Burada hər bir zövqə uyğun yeməklər verilir. Xüsusilə əgər siz şəkərli diabet xəstəliyinə düçar olmusunuzsa, sizə uyğun yeməklər təklif olunur. Və siz istədiyiniz yeməklərlə qidalana bilərsiniz. Mən deyərdim ki, Azərbaycanda bu səviyyədə bir neçə sanatoriya mövcuddur. Bunlara əsasən Naftalan və Qalaaltı sanatoriyalarını nümunə göstərmək olar. Əfsuslar olsun ki, Azərbaycanda mövcud olan termal suların, müalicəvi əhəmiyyətli suların bazasında belə nəhəng sanatoriyalar tikilmir. Mən əminəm ki, müasir dövrdə turizmin inkişaf etməsi ilə əlaqədar olaraq Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin yeritdiyi siyasətə uyğun olaraq ölkəmizdə inkişaf edən sahələrdən biri də turizm sahəsi olacaqdır. Bu sahənin inkişaf etdirilməsi üçün nəinki Bakı şəhərində, ayrı-ayrı bölgələrdə, o cümlədən Qax, Şamaxı, Şəki, Masallı, Lənkəran rayonlarında çoxsaylı zəngin resurs potensialı vardır. Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün çoxsaylı məqalələr müəllifi kimi onu deyə bilərəm ki, ölkəmizdə gələcəkdə belə böyük sanatoriyaların, bazaların inşası Azərbaycanda turizmin inkişaf və insan sağlamlığının bərpası üçün böyük əhəmiyyətə malik olacaqdır. Müxtəlif dünya ölkələrində olan biri kimi deyə bilərəm ki, arxitektura baxımından bu sanatoriya ilə oxşar olanları görsəm də, buradakı xidmət, mən deyərdim ki, dünyanın çox az ölkələrində nadir hallarda göstərilə bilər.

Misal üçün mən müalicə üçün Macarıstanda Balaton gölü sahillərində olarkən sanatoriyada bir həkim bizi 15-20 dəqiqə qəbul etdi və müalicə kursu yazdı ki, sizin üçün bu uyğundur, bu müalicə kursunu keçin. Amma burada elə deyil. Əvvəlcə sizin üçün bir can həkimi təyin olunur və o can həkimi siz burada olduğunuz müddətdə bütün problemlərinizlə məşğul olur. Burada mənim üçün və həyat yoldaşım üçün təyin olunan can həkimi yüksək peşəkarlıq dərəcəsinə malik olmaqla bərabər, bizi başqa həkimlərə də istiqamətləndirdi. Əsas xəstəliyim şəkərli diabet olduğu üçün bu sahə ilə məşğul olan yüksək ixtisaslı həkimə, sonra ayaqlarım və qollarımda olan ağrılarla bağlı olaraq nevropatoloqa və digər həkimlərə yönəltdi və onlar da öz növbələrində bizə sağlamlığımızı bərpa etmək üçün müalicə kursları müəyyən etdilər. Bu nəhəng sanatoriyada hər bir şey kompüterləşdirilmişdir. Həkim və orta tibb personalının qəbuluna gedərkən sizə verilən müalicə kursundan harda, nə vaxt, saat neçədə, necə keçməyiniz barədə məlumatlar sizin əlinizdəki vəsiqədə hazır şəkildə yazılmş olur. Burada sizə yazılan müalicə üsulu dəqiqəbədəqiqə müəyyən edilir və deyilən vaxtda siz gedib o müalicə kursunu qəbul etməlisiniz. Burada çalışan ali və orta təhsilli mütəxəssislərin hər biri yüksək komputer biliklərinə malikdir. Mənim üçün qeyri-adi olan müalicə üsullarından biri venaya yeridilən sistemlərdir ki, siz bir neçə sistemdən sonra öz sağlamlığınızda irəliləyişlərin olduğunu hiss edə bilərsiniz. Bu sanatoriyanı fərqləndirən, buraya belə böyük əhali axını olmasına səbəb olan amillərdən biri buradakı qiymətlərin münasib olmasıdır. Hər bir insan öz topladığı maliyyə resursuna uyğun gəlib burada müalicə oluna bilər. Burada bizim üçün 15 gün müddətində yarım lüks nömrədə qalmaq , çoxsaylı müalicə kurslarını qəbul etmək, gündə 3 dəfə yemək və digər xidmətlər daxil olmaqla bir nəfər üçün 1200-1300 ABŞ dollarına başa gəldi. Standart nömrələrdə isə qiymətlər 1 nəfər üçün 15 gün müddətinə 1000ABŞ dollarına qədərdir. Bəzi insanlar üçün bu baha görünə bilər. Amma mən deyərdim ki, 15 gün qalmaq, gündə 3 dəfə yemək və müalicə kursu qəbul etmək üçün bu heç də baha deyil. Sanatoriyada fərqli cəhətlərdən biri kimi ekskursiyaların təşkil olunmasını söyləyə bilərəm. Bu ekskursiyalar Avropa ölkələrində olanlardan qat-qat ucuzdur. Misal üçün biz xanımımla Avropa ölkələrində olarkən hər bir ekskursiya üçün minimum 100 avro, maksimum 150 avro ödəyirdik. Avstriya, İsveçrədə olarkən pendir, şərab istehsalı müəssisəsinə getmək üçün hər nəfərə görə 100 avro, atçılıq təsərrüfatna getmək üçün 100-120 avro ödəməli olurduq. Burada isə bir ekskursiyanın qiyməti maksimum 10-20 ABŞ dolları dəyərindədir. Dünyanın müxtəlif ölkələrində, Avropa ölkələrində belə ekskursiyalara çox böyük maraq göstərilir. Azərbaycanda Bakı ətrafında çoxsaylı ecazkar yerlər vardır. Misal üçün qayalar üzərində rəsm qalereyası, çoxsaylı palçıq vulkanları. Qeyd edim ki, Azərbaycan dünyada palçıq vulkanlarının sayına görə birinci yerdə dursa da, nədənsə bizim yerli əhalimiz, həmçinin turistlər belə ecazkar yerlərə maraq göstərmirlər. Mən arzu edərdim ki, həm Yessentuki şəhərində, həm də Azərbaycanın ayrı-ayrı yerlərində tarixi məkanlara, ibadətgahlara və s. yerlərə ekskursiyaların təşkili yenidən qurulsun və bunların təşkili üçün ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilsin. Onu qeyd edə bilərəm ki, İsveçrədə bizi müşayiət edən şəxs həm avtomobil sürücüsü idi, həm turizm şirkətinin mütəxəssisi idi, həm də ölkə haqqında o qədər mükəmməl biliyə malik idi ki, biz ondan nə qədər məvacib aldığını soruşduqda o, 800 avro məvacib aldığını söylədi. Yessentukidəki "İstoçnik" sanatoriyasında insanların müalicəsi ilə yanaşı, onların estetik zövqlərini təmin etmək üçün hər iki gündən bir pulsuz konsertlər təşkil olunur. Burada insanların sağlamlığını bərpa etmək üçün tibbi avadanlıqlar ilə yanaşı, yüksək qiymətə alınmış




müxtəlif cür idman alətlərindən də istifadə olunur. Siz burada velosipedlərdən, sağlamlığı bərpa etmək üçün hər cür avadanlıqla təmin olunmuş zallardan istifadə edə bilərsiniz. Həmçinin burada qadınlara və kişilərə xidmət edən gözəllik salonları vardır. Buradakı çoxsaylı mağazalarda hər cür suvenirlər və digər əşyalar satılır.

Yuxarıda qeyd olunanlarla yanaşı, yaxşı olardı ki, belə adlı-sanlı bir sanatoriyada gələcəkdə xarici valyuta dəyişmək üçün məntəqələr , poçt şöbələri, insanların öz rəylərini yazmaları üçün irad və təkliflər kitabı olsun. Bunlarla bərabər, sanatoriyanın ayrı-ayrı mərtəbələrində Azərbaycanın ayrı-ayrı tarixi ərazilərini əks etdirən şəkillər asılsa, daha yaxşı olardı. Çünki, qeyd etdiyimiz kimi, buradakı insanlar da bilir ki, bu sanatoriya azərbaycanlı bir iş adamının dəstəyi ilə tikilmişdir və burada Azərbaycanın adı ilə bağlı olan sahələr vardır. Mən arzu edərdim ki, iş adamları Azərbaycanda da belə sanatoriyaların tikilməsi üçün əllərindən gələni etsinlər. Çünki Azərbaycanın gələcək inkişafının neft-qaz sənayesi ilə deyil, turizm təsərrüfatı ilə sıx bağlı olmasını nəzərə alaraq belə sanatoriyaların tikilib istifadəyə verilməsi çox mühüm əhəmiyyətə malikdir.

**Neron BABAXANOV,**
**BDU-nun professoru.**

# "BAHAR NƏ XOŞ GƏLİR..."



**Dağlar, düzlər yamyaşıl xalıya bürünür. Çöllərin əriş-arğacına ılıq nəfəsilə minbir ilmə vuran nazlı-qəmzəli bahar düymə-düymə çiçəklərilə elləri, obaları kəməndə salır. Könlümdən bir istək, bir duyğu keçir: Keşkə dünyamızı elə çiçəklər kəməndə salaydı, güllələr yox, güllər gül açaydı əsgər sinəsində...**

**Su çərşənbəsi, od çərşənbəsi və yel çərşənbəsi geridə qaldı. İndi növbə torpaq çərşənbəsinindir. Sinəsi sirlərlə, sehrlərlə dolu ana torpağın!**

Yurdumuzun hər yerində olduğu kimi, doğma Bakı Dövlət Universitetində də çərşənbələr, xüsusilə ilaxır çərşənbə, Novruz bayramı böyük təntənəylə, atəşfəşanlıqla keçirilir. Xalqımızın minilliklərə söykənən adət-ənənəsi, zəngin mənəviyyatı, mifik təsəvvürləri bizlərə əmanətdi. Ana südü, dağ çiçəyi ilə süslənmiş, bulaq kimi saf, göy üzü kimi dumduru, bal kimi şipşirin doğma ana dilimizdə səslənən bahar şərqiləri, yaz tərənələri necə əsrarəngiz, necə gözəldi.

*Məni xoşbəxt eyləyən*
*Şirin-şəkər dilimdi...*

Gələn il 100 illiyini qeyd edəcək Şərqin ilk Universiteti Bakı Dövlət Universitetində oxuyan hər bir tələbə öz el-obasının dadını-duzunu, şirinliyini, koloritini gətirir bu doğma ocağa...

Bayram səmənilər, baş-başa vermiş ətirli şamlar, xonçalarda göz oxşayan, könül açan bayram naz-nemətləri, teatrlaşdırılmış səhnələr, el oyunları, mərasim nəğmələri, tapmacalar, yanıltmacalar, dodaqqaçdılar, bayatılar, düzgülər, sınamalar, nazlamalar...

Bu Novruz şənliklərində xalqımızın ruhu, əxlaqı, mənəviyyatı, allı-güllü dünyası şəfəq saçar bulaq kimi çağlayar.

Bu, Azərbaycanın qocaman Bakı Dövlət Universitetinin hər gələn baharın Novruz günlərində yaşadığı bayram ovqatından fraqmentlərdi.

Novruz bayramının belə möhtəşəm, ovqatda rəngarənglik yaradan tər çiçəklər təzəliyində keçirilməsində Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun zəhməti böyükdür. Milli ruha, qədim ənənələrimizə bağlı olan bu elm, təhsil fədaisi universitet tələbələrinin milli ruhda tərbiyə almasına, əsl ziyalı kimi yetişməsinə xüsusi diqqət yetirir. Gənclərimizə öz tarixi keçmişinə qayğı ilə yanaşmağı tövsiyə etmiş ulu öndər Heydər Əliyevin adını hörmət və ehtiramla çəkir. Ümummilli liderimiz Azərbaycana rəhbərliyi dövründə daim gənclərə qayğı göstərmiş, onların bir şəxsiyyət kimi yetişməsinə xüsusi önəm vermiş, onlara himayədarlıq etmiş, bir sözlə, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür.

Novruz bayramının, çərşənbə axşamlarının belə təntənəylə keçirilməsi, YUNESKO səviyyəsində qeydə alınması ulu öndərin adıyla bağlıdır. Çünki aqillər demişkən: "Dünəni olmayanın nə bu günü var, nə də sabahı olacaq". Dünəni yaşatmaq bu günün salnaməsini yazacaq gəncliyin şərəfli borcudur.

"Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir.

Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".

Ulu öndər Heydər Əliyevin bu qiymətli sözləri müasir gəncliyimizə, ölkəmizin sabahına olan böyük inamının nəticəsidir.

Akademik Abel Məhərrəmov ulu öndərin gəncliyə etdiyi tövsiyələri bəslədiyi inamı, etibarı bir ziyalı, pedaqoq kimi daim tələbə-gənclərə təlqin edir.

Universitetdə bayramları təntənəylə keçirmək artıq ənənə halını almışdır. Gəncləri bayram münasibətilə təbrik edən, onlara ən xoş arzularını bildirən Abel müəllim həm də hər bir tələbəyə Bakı Dövlət Universitetinin adını, şərəfini ləyaqətlə qorumağı tövsiyə edir.

Bu, həm də ulu öndər Heydər Əliyevin layiqli davamçısı, xalqın əsil lideri Prezidentimiz İlham Əliyevin bu günün gəncliyi qarşısında qoyduğu ümdə vəzifələrdi.

"Gənclər, əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə gəncliyinə ünvanladığı inam dolu bu sözləri həm də gənclərimizin böyük potensialından xəbər verir.

Azərbaycanın son illərdə qazandığı böyük uğurlar, dünya dövlətləri sırasında özünə layiq yer tutması, iqtisadi tərəqqi, idman sahəsindəki, nailiyyətlər, əhalinin rifah halının yaxşılaşması, gənclərə göstərilən böyük qayğı ölkə daxilində aparılan böyük quruculuq işləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin titanik zəhmətinin bəhrəsidir.

Qazanılan bu böyük uğurlarda ölkənin birinci xanımı, vitse-prezident Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər təşkilatının sədri Leyla xanım Əliyevanın da müstəsna xidmətləri vardır.

Baharın bu gözəl çağlarında xalqımız bir əlamətdar hadisənin də iştirakçısı olacaqdır. Aprelin 11-ində Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Hər bir ölkə vətəndaşı ölkəmizin sabahına, işıqlı gələcəyinə böyük inamla, ruh yüksəkliyi ilə bu seçkilərdə iştirak edəcəkdir.

Bahar həm də yenilik, təzəlik, xeyir, bərəkət, çağlayış fəsldir. Bakı Dövlət Universitetinin hər bir tələbəsi könlündəki bahar duyğusuyla sabahlara daha böyük inamla addımlayır. Bu bahar həm də Universitetin ümumi mənzərəsində öz əksini tapıb. Son illərdə görülən abadlıq işləri bu qabaqcıl təhsil ocağına xüsusi bir gözəllik gətirib. Bu təhsil ocağının hər bir üzvü bu gözəlliyin, səliqə-sahmanın qorunub-saxlanması üçün əlindən gələni əsirgəmir. Göz oxşayan sərv ağacları, yaşıl çəmənliklər, bəzək kolları, güllər, çiçəklər nazlı baharı qarşılayır...

İnsan sevgisilə yeri-göyü süsləyir. Baharın gəlişi könüllərdəki bu sevgini, bu məhəbbəti birə-beş artırıb. Qəlbimiz göy üzü kimi durulub. Könlümüz axar sular kimi çağlayır. Ötən ilin ağırlığı-uğurluğu, dərdi-bəlası üstündən atıldığımız tonqalların alovunda yanır.

Bahar ılıq nəfəsi, tumurcuq əllərilə qapımızı, pəncərələrimizi döyür. Qapıları, pəncərələri açaq, baharı qarşılayaq. Gözəlliyə, əlvanlığa təşnə olan könlümüzü şadlandıraq.

Qoy ilin bu əziz günlərində hər bir vətən övladının arzuları, ümidləri, istəkləri çin olsun. Vətən torpaqları işğaldan azad olunsun. Şəhidlərimizin ruhu şad olsun.

**Günel MƏLİKLİ,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru.**







# "Buta Airways" Türkiyənin məşhur kurortuna aviareys açır

**"Buta Airways" 2018-ci il iyunun 7-dən etibarən Türkiyənin məşhur kurort şəhəri - Alanyaya birbaşa uçuşlara başlayır.**

Aviaşirkətin digər istiqamətləri kimi Bakı-Alanya (Qazipaşa hava limanı) istiqaməti üzrə də minimal tarif 29 avro (bir tərəfə) təşkil edəcək. Uçuşlar iyunun 7-dən etibarən həftədə iki dəfə - cümə axşamı və şənbə günləri həyata keçiriləcək.

Aviabiletləri artıq aviaşirkətin rəsmi internet saytında, həmçinin satış ofislərində əldə etmək mümkündür.

Lou-kost aviaşirkət olaraq, minimal tarifdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, hava limanında qeydiyyat, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətlər ödəniş müqabilində təklif edilir.




Alanya Aralıq dənizi sahilində gözəl şərq şəhəri və eyni zamanda Türkiyənin yazdan payıza kimi istirahət edə biləcəyiniz sərfəli kurortudur. Müxtəlif çalarlı isti dəniz, mavi bayraqlarla işarələnən möhtəşəm çimərliklər, gözəl mənzərələr, maraqlı çoxəsrlik tarix, su əyləncələri, parlaq gecə həyatı turistlərə buradakı istirahətini uzun müddət xatırladacaq.

**"Buta Airways" aviaşirkətinin mətbuat xidməti**

# Sumqayıt abunəçiləri üçün yeni Azercell Eksklüziv

Azərbaycanın lider mobil operatoru Azercell Telekom yeni konsepsiyaya uyğun mağazaların sayını paytaxt və regionlar boyu artırmaqda davam edir. Belə ki, Azercell 12 mart tarixində Sumqayıtda yeni konsepsiyaya uyğun Eksklüziv mağazasının açılışını edib. Sumqayıt şəhəri, 11-ci m/r, Koroğlu və Üzeyir Hacıbəyov küçələrinin kəsişməsində yerləşən bu mağaza ən müasir avadanlıqla təchiz olunaraq yeni Nordic konsepsiyasına uyğun olaraq təşkil olunub. Mağazanın xüsusi özəlliyi ofisdə acıq sahələrin mövcudluğu, servislərin və seçim imkanlarının rahatlığıdır. Belə ki, burada abunəçilər istədiyi məhsulu tədqiq və müqayisə edə, sınaqdan keçirə bilərlər. Düzgün seçim etməkdə, xidmətləri qoşmaqda və digər məsələlərdə isə müştərilərə peşəkar satıcılar dəstək olur. Bu mağazada da "izahlı qaimə" və




"addan-ada" əməliyyatları istisna olmaqla, digər müştəri xidmətləri mərkəzlərində təqdim olunan bütün əməliyyatlar icra olunur. Burada abunəçilər mobil texnologiyaları dəstəkləyən müxtəlif aksesuralar, cihazlar əldə edə, eyni zamanda mobil telefonları kredit və nağd şəkildə ala bilərlər. Qeyd edək ki, Sumqayıtda fəaliyyət göstərəcək bu mağaza da həftənin bütün günləri fasiləsiz olaraq səhər saat 9:00-dan axşam 19:00-a qədər abunəçilərin ixtiyarına verilir.

Yeni ofisin açılış günündə Azercell müştərilərinə özəl hədiyyə olaraq daha bir endirimli kampaniyasını təqdim etdi. Belə ki, açılış günündə Sumqayıt Azercell Eksklüziv mağazasından alış-veriş edən müştərilər, xərclədikləri məbləğin düz 50% dəyərində hədiyyə əldə edə biləcəklər.

Azercell Telekom yaxın il ərzində yeni konsepsiyalı Eksklüziv mağazalarını ölkə boyu genişləndirərək abunəçilərə daha rahat və faydalı xidmət göstərəcək.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

**Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsi davam etdirilir.**

2018-ci il martın 12-də Astara reydində fırtınalı hava şəraiti ilə əlaqədar batma təhlükəsi ilə üzləşən "ŞA-274" bort nömrəli, "Yamaha-48" mühərrikli üzmə vasitəsinin 2 (iki) nəfərdən ibarət heyəti tərəfindən DSX Sahil Mühafizəsinin "Kələdəhnə" sahil nəzarəti məntəqəsinə köməklik göstərilməsi barədə müraciət edilmişdir.

Sahil nəzarəti məntəqəsi tərəfindən cənub istiqamətində xidmətdə olan sərhəd gözətçi gəmisi ilə əlaqə saxlanaraq təhlükədə olan üzmə vasitəsinin koordinatları ötürülmüşdür. Sərhəd gözətçi gəmisi tərəfindən həyata keçirilmiş axtarış-xilasetmə tədbirləri nəticəsində fırtınalı hava şərati və texniki nasazlıq səbəbindən sahildən 10 km məsafədə dənizdə qalmış balıqçı qayığı aşkar edilmiş, zəruri xilasetmə əməliyyatına başlanılmışdır.

Küləyin sürəti saniyədə 23 metr, dalğanın hündürlüyü 3 metrdən çox olan fırtınalı hava şəraitində batma vəziyyətində olan qayıqdakı insanlar xilas edilmişdir.

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən xilas edilmiş şəxslərin Astara rayonu Şahağacı kənd sakinləri Həsənov Süleyman Telman oğlu və Həsənov Əbdülhüseyn Ağasəf oğlu olmaları müəyyən edilmişdir.




## ❑ MÖVLUD ÇAVUŞOĞLU: VAŞİNQTONDA ƏSAS MÜZAKİRƏ MÖVZUSU MENBİÇ OLACAQ



Martın 19-da Vaşinqtonda baş tutacaq ABŞ-Türkiyə birgə toplantısında əsas müzakirə mövzusu Menbiç olacaq. "APA"nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bu bəyanatla Moskvada səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxış edib.

Diplomat Ankara ilə Vaşinqton arasında razılığa gəlinəcəyinə əminliyini ifadə edərək, PYD/YPG terrorçularının Menbiçdən çəkiləcəyini bildirib. O deyib: "Görüşdə bu məsələyə nöqtə qoyulacaq. Menbiçdə tətbiq olunan model yalnız bu bölgə üçün yox, Suriyanın şimalında bütün əraziləri əhatə edəcək. Suriyanın şimalında kürdlər yaşayacaq, amma terrorçular yox. PYD/YPG-nin oranı tərk etməsinə nəzarət edəcəyik. Onlardakı silahların alınıb-alınmayacağı diqqətdə saxlanılacaq. Menbiçdə yalnız ABŞ və Türkiyə ordusu olacaq, təhlükəsizliyə bərabər nəzarət ediləcək".

Mövlud Çavuşoğlu PYD/YPG-nin Menbiçdən çıxmayacağı təqdirdə atılacaq addımları da açıqlayıb. "Bu halda hərbi əməliyyatlara start veriləcək. Fəratın şərqindən Deyr əz-Zora qədər, Bəşər Əsəd qüvvələrinin də olduğu ərazilər təhlükəsiz bölgələr elan ediləcək və burada siyasi qərar verilənə qədər Dəməşqdən heç bir köməklik istənməyəcək. Bu ərazilər yalnız siyasi qərardan sonra yeni yaranacaq hökumətə həvalə ediləcək", - deyə Mövlud Çavuşoğlu bəyan edib.

Eyni zamanda, bu əməliyyata Rusiyanın cavabı barədə suala toxunan Mövlud Çavuşoğlu Türkiyənin atacağı addımların Suriyanın ərazi bütövlüyünü pozmayacağını, bu səbəbdən də Rusiyanın narahatlığına əsas olmadığını bildirib.

## ❑ RUSİYA: TEREZA MEYİN BƏYANATI PARLAMENTDƏ SİRK ŞOUSUDUR



Rusiya Xarici İşlər Nazirliyində Britaniya baş naziri Tereza Meyin bəyanatını sirk şousu adlandırıblar. "APA"nın verdiyi məlumata görə, Rusiya XİN sözçüsü Mariya Zaxarova Böyük Britaniyanın baş naziri Tereza Meyin Londonda sabiq rus kəşfiyyatçısının zəhərlənməsində Rusiyanın əli olması ilə bağlı bəyanatına münasibət bildirib.

Mariya Zaxarova deyib: "Bu, Britaniya parlamentində sirk şousudur. Nəticə aydındır: təxribata əsaslanan növbəti informasiya-siyasi kampaniya. Yeni nağıllar uydurmaqdansa, qoy, Krallıqda kimsə bundan öncəki işlərin aqibətinin necə olduğu barədə danışsın".

Qeyd edək ki, bundan əvvəl Tereza Mey Rusiyanı Baş Kəşfiyyat İdarəsinin sabiq polkovniki Sergey Skripal və onun qızının zəhərlənməsində əli olmaqda ittiham edib.

T.Mey Böyük Britaniya parlamentinin İcmalar palatasında çıxışı zamanı deyib: "Artıq aydındır ki, cənab Skripal və onun qızı Rusiyada hərbi məqsədlərlə istehsal edilən siniri iflicedici maddə ilə zəhərləniblər".

Tereza Mey həmçinin insidenti Rusiyanın Böyük Britaniyaya qarşı məsuliyyətsiz hərəkəti adlandırıb. O bəyan edib ki, iki gün ərzində Rusiya tərəfindən S.Skripalın işi üzrə izahat gözləyir.

Xatırladaq ki, martın 5-də Britaniya xüsusi xidmətlərinə casusluqda günahlandırılan və hazırda İngiltərədə yaşayan Rusiya Baş Kəşfiyyat İdarəsinin sabiq polkovniki Sergey Skripal Solsberi şəhərində ticarət mərkəzində naməlum maddədən zəhərlənərək xəstəxanaya yerləşdirilib.

## ❑ ÇİN HÖKUMƏTİNDƏ STRUKTUR İSLAHATLARI HƏYATA KEÇİRİLƏCƏK



Çin hökumətində struktur islahatları həyata keçiriləcək. "APA"nın məlumatına görə, islahatlar planı Ümumçin Xalq Nümayəndələri Məclisinin sessiyasında müzakirəyə çıxarılacaq.

İslahatlar planına əsasən, ölkədə yeni 8 qurum yaradılacaq. Mövcud dövlət strukturunun bir hissəsi ləğv ediləcək. İslahatlar nəticəsində Çində 26 nazirlik və komitə fəaliyyət göstərəcək.

Eyni zamanda, islahatların bəzi detalları da artıq məlumdur. Belə ki, İctimai Təhlükəsizlik Nazirliyi nəzdində Dövlət Miqrasiya Administrasiyası yaradılacaq, həmçinin sığorta və bank xidmətlərinə dair komissiya və beynəlxalq əməkdaşlığın inkişafı üzrə yeni idarə təşkil ediləcək.

Qeyd edək ki, martın 11-də Ümumçin Xalq Nümayəndələri Məclisi bir şəxsin iki dəfədən artıq Çin Xalq Respublikasının sədri və müavini postlarına seçilməsinə qadağanı nəzərdə tutan Konstitusiya müddəasının ləğv edilməsini dəstəkləyib.

Bundan sonra Çin Xalq Respublikasının sədri Çin Xalq Nümayəndələri Yığıncağında hər dəfə 5 il müddətində olmaqla, məhdudiyyət olmadan seçilə biləcək.

## ❑ REKS TİLLERSON VƏZİFƏSİNDƏN UZAQLAŞDIRILDI



ABŞ-ın dövlət katibi Reks Tillerson vəzifəsindən azad ediləcək. "APA"nın xəbərinə görə, bu barədə prezident Donald Tramp özünün "Twitter" səhifəsində yazıb.

Verilən xəbərə görə, Donald Tramp Reks Tillersonu vəzifədən uzaqlaşdıracağını və yerinə Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Mayk Pompeonu təyin edəcəyini bildirib.

ABŞ prezidenti dövlət katibi Reks Tillersonun vəzifədən uzaqlaşdırılmasına dair qərarından sonra ilk açıqlamasında deyib: "Reks Tillersonla İran məsələsində razılığa gələ bilmədik".

Donald Tramp bu qərarı təkbaşına verdiyi də bildirib. O deyib: "Tillersonla fikirlərimiz eyni deyildi. Uzun müddətdir, bu barədə düşünürdük. Pompeo ilə fikirlərimiz isə eynidir və ona tam güvənirəm".

Qeyd edək ki, Trampla Tillersonun Şimali Koreya və Qətərə münasibətdə də fikir ayırlıqlarının olduğu məlum idi.

## ❑ BƏƏ ŞAHZADƏSİ HƏBSDƏ İŞGƏNCƏLƏRƏ MƏRUZ QALDIĞINI İDDİA EDİB



Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, baş naziri və Dubay hökmdarı Məhəmməd bin Rəşid Əl-Məktumun qızı şahzadə Lətifə üç il ərzində həbsxanada qaldığını və atasının ona işgəncə verdiyini iddia edib. Bu barədə "TRT" telekanalı "Daily Mail" qəzetinə istinadən məlumat yayıb.

Verilən xəbərinə görə, 33 yaşlı Lətifə bir fransız xəfiyyəsi tərəfindən qaçırılaraq xilas olduğunu bildirib. Gənc qadın hazırda Hind Okeanının cənubunda bir yaxtada gizləndiyini qeyd edib.

Şahzadə Lətifə çəkdiyi video materiallarda da ailəsinin və atasının ona qarşı olan işgəncələrindən danışarkən deyib: "Bizim güman etdiyiniz kimi heç bir azadlığımız yox idi. Küçəyə çıxmaq qadağası vardı. Saraydan çıxanda müşahidə altında idim və evə müəyyən bir saatda dönməliydim. Anam məndən gündəlik hesabat alırdı və əlbəttə ki, sürücüdən hara getdiyimizi öyrənirdi. Sürücü atamın ofisinə də bu hesabatları göndərirdi".

Bununla yanaşı, ilk olaraq 16 yaşında qaçmağa cəhd göstərən şahzadə Lətifə bu təşəbbüsünün uğursuzluqla nəticələnməsindən sonra dəfələrlə işgəncəyə məruz qaldığını qeyd edib.

Eyni zamanda, atasının köməkçilərinin ona işgəncə verdiyini bildirən Lətifə Dubayda 3 il 4 ay həbsdə qaldığını, həbsdən çıxandan sonra bir daha pasportunun ona verilmədiyini, 2000-ci ildən bu yana xarici ölkələrə səfər etmədiyini, avtomobil idarə etməyə icazəsi olmadığını və bütün hərəkətlərinin müşahidə altında tutulduğunu bildirib.

## ❑ KONQRES TRAMPIN SEÇKİ KAMPANİYASINDA RUSİYA İZİ TAPMAYIB



ABŞ-ın Nümayəndələr Palatasının Kəşfiyyat üzrə Komitəsi prezident Donald Trampın seçkiqabağı kampaniyası və rəsmi Moskva arasında hər hansı əlaqə tapmayıb. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bunu respublikaçı konqresmen Mayk Konvey bəyan edib.

"Biz sövdələşməyə dair ciddi dəlil-sübut aşkarlamadıq. Söhbət yalnız bəzi uğursuz qərarlar və yersiz görüşlərdən gedə bilər", - deyə konqresmen vurğulayıb.

Mayk Konveyin sözlərinə görə, məsələ ilə bağlı bütün dindirilmələr başa çatıb. Bununla belə, Demokratlar Partiyasının Nümayəndələr Palatasındakı üzvləri vəzifəsini tərk edən Ağ Evin kommunikasiyalar üzrə direktoru Houp Hiks və Trampın seçkiqabağı kampaniyasının meneceri Kori Levandovskinin dinlənilməsini zəruri sayırlar.

Qeyd edək ki, Federal Təhqiqatlar Bürosunun sabiq direktoru Robert Müller ötən ilin mayında "Rusiya işi" ilə bağlı xüsusi prokuror təyin olunub.

Eyni zamanda, ABŞ Konqresinin hər iki palatasının müvafiq komitələri Rusiyanın seçkilərə müdaxiləsi və Trampın komandasının Rusiya ilə əlaqələrinə dair təhqiqat aparır. ■

# “Azərmarka” uşaqlar üçün Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş rəsm müsabiqəsi elan edir




**26 mart tarixindən etibarən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərmarka” MMC tərəfindən 5-14 yaşlı uşaqlar üçün Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən rəsm müsabiqəsinə start veriləcək.**

“Yaşa, Azərbaycanım!” adı altında müsabiqənin keçirilməsində başlıca məqsəd uşaqlarda vətənpərvərlik və vətənə məhəbbət, milli tariximizə bağlılıq hissinin aşılanması, milli adət-ənənələrin təbliği və onların yaradıcılıq potensialını üzə çıxarmaqdan ibarətdir.

Müsabiqədə iştirak üçün çəkilmiş rəsmi poçt ünvanı, iştirakçının soyadı, adı, yaşı, valideynin mobil telefon nömrəsi, “Aksiya. Yaşa, Azərbaycanım!” qeyd edilməklə poçt vasitəsi ilə müsabiqənin Təşkilat komitəsinə (ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702. “Azərmarka” MMC) göndərmək lazımdır.

Rəsmlərin qəbulu üçün son tarix 26 apreldir.

Qeyd olunan müddətdən sonra göndərilən rəsmlərə və müsabiqənin mövzusuna uyğun olmayan işlərə baxılmayacaq.

Aprelin 26-dan mayın 1-dək münsiflər tərəfindən ümumilikdə 10 ən yaxşı rəsm müəyyənləşdiriləcək.

İlk 3 qalib - 1-ci yer - 300 manat, 2-ci yer - 200 manat, 3-cü yer - 100 manat olmaqla pul mükafatına layiq görüləcək. Digər 7 qalib qiymətli hədiyyələrlə mükafatlandırılacaq.

Ən uğurlu rəsm nümunəsi “Azərmarka” tərəfindən hazırlanan təbrik açıqcasının dizaynı kimi seçiləcək.

Bundan başqa, 10 uğurlu rəsm mayın 28-də İçərişəhərdə keçiriləcək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən sərgidə nümayiş olunacaq.

Müsabiqə ilə bağlı əlavə məlumat üçün (012) 598 49 01 saylı telefon nömrəsi və info@azermarka.az elektron poçt ünvanı ilə əlaqə saxlaya bilərsiniz.

# UNEC “Azeri Light” neftinin dünya qiymətinin proqnozunu yenilədi

Azərbaycan neftinin (Azeri Light) dünya bazarında qiymətinin UNEC proqnozu yenilənib. Proqnozların verilməsi zamanı dünya neft bazarında son zamanlar baş verən proseslər nəzərə alınıb.

Yenilənən proqnoz aşağıdakı kimidir (bir barel neftin ABŞ dolları ilə qiyməti):

| il | min | orta | max |
|---|---|---|---|
| 2018 | 52.1 | **65.7** | 81.2 |
| 2019 | 57.3 | **73** | 87.1 |
| 2020 | 59.6 | **75.4** | 88.3 |

Beynəlxalq qurumların neft qiymətinin proqnozları müqayisə üçün aşağıdakı cədvəldə verilib (barel/dollar):

| Təşkilatlar | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Dünya Bankı | 57.6 | 59.5 | 59.3 |
| ABŞ Enerji Administrasiyası | 51.2 | 54.5 | 68.4 |




**Ülvi QARAYEV,**
**“Respublika”.**

## BİLDİRİŞ

**“Bakı Metropoliteni” QSC tərəfindən keçirilmiş “Bakı Metropoliteni” QSC-nin Nəqliyyat və Xüsusi Texnika Departamentinin tələbatını təmin etmək məqsədilə yük və minik avtomobillər üçün ehtiyat hissələrin və mal materialların “Kotirovka sorğusu” üsulu ilə satınalınmasına dair müsabiqədə “Nəqliyyat Təmir-təchizat” MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 13.03.2018-ci il tarixdə ƏDV daxil 25 640,55 manat (iyirmi beş min altı yüz qırx manat 55 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.**

**“Bakı Metropoliteni” QSC-nin Tender Komissiyası.**

## “Bakı Metropoliteni” QSC Təsərrüfat mallarının və təmizləyici vasitələrin satınalınması üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-00) ala bilərlər.

**LOT-1. Təsərrüfat mallarının və Təmizləyici vasitələrinin satınalınması**

**İştirak haqqı - LOT-1 - 200 manat**
**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN1402871431**
**Bank:AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu:501361**
**VÖEN:9900006111**
**M/H:AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10 may 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18 may 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 21 may 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**“BAKI METROPOLİTENİ” QSC TENDER KOMİSSİYASI.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## BİLDİRİŞ

“AzerGold” QSC tərəfindən “Çovdar Filiz Emalı Sahəsində nəqliyyat vasitələrinə servis xidmətinin satınalınması” ilə bağlı 18 yanvar 2018-ci il tarixində elan edilmiş açıq tender üzrə iştirakçıların sayı 3 (üç)-dən az olduğu üçün ilkin sənədlərin qəbulu tarixi 05 aprel 2018-ci il saat 15.00-dək, tenderə kommersiya təkliflərinin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 17 aprel 2018-ci il 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərinin açılışı 18 aprel 2018-ci il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. Sənədlərin qəbulu həftənin I-V günləri, saat 09.00-dan 18.00-dək aparılır.

**Əlaqələndirici şəxs:** *Rafiq Abdullayev*

**Tel.:** *012-505-02-02*

**Ünvan:** *“AzerGold” QSC, Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H.*

## BİLDİRİŞ

**Xətai Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin məşğulluq mərkəzində çalışan işçilərə tələb olunan geyim və mal-materialların İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin 12 mart 2018 ci il tarixli 1767p saylı qeydə alınmış satınalma məktubu üzrə kotirovka sorğusu ləğv olunur.**

**Tender Komissiyası.**

## Bakı Dövlət Universiteti

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** BDU-nun kompüterlərinin Antivirus proqramı ilə təminatı.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.03.2018-ci il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar (012) 510 - 08 - 23 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov 23*

## SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİ BAŞÇISININ CORAT QƏSƏBƏ İNZİBATİ ƏRAZİ DAİRƏSİ ÜZRƏ NÜMAYƏNDƏLİYİ

## 2018-ci ildə qəsəbədə aparılacaq abadlıq-asfaltlama işləri üçün

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) Lot üzrə keçirilir.**

**LOT-1. Qəsəbənin, küçə və yolların abadlıq-asfaltlama işləri.**

İşlərin yerinə yetirilməsi ilin sonunadək nəzərdə tutulmuşdur.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

